RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN



№ 214 (10234) 20 noyabr 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



Ədalətin Zəfər təntənəsi

Həm Ulu Öndər Heydər Əliyev, həm də möhtərəm Prezident İlham Əliyev dəfələrlə açıq şəkildə bəyan etmişdilər ki, Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcək və öz ərazisində ikinci ermənı dövlətinin yaranmasına yol verməyəcəkdir!

Üstəlik, bu qətiyyətli mövqeni təkcə danışıqlar masasında ortaya qoyaraq müdafiə etmirdilər.

Ölkə iqtisadiyyatını dayanmadan gücləndirir, yeni ordu quruculuğu ilə ciddi şəkildə məşğul olurdular.

Ömür Ulu Öndər Heydər Əliyevə vəfa etmədi, cənab İlham Əliyev isə torpaqların işğaldan azad ediləcəyi və məcburi köçkünləri dogma torpaqlarına qaytaracağı barədə vədinə sonadək sadiq qaldı.

İlk dəfə 2016-cı ildə baş verən dördgünlük Aprel döyüşlərində düşmənə ciddi qulaqburması verildi.

Lakin havadarlarına arxalanan düşmən bundan lazımi nəticə çıxarmadı… *Münaqişənin birdəfəlik və əbədi həlli üçün hərbi variant qaçılmaz oldu!*

Düşmənin Tovuz bölgəsində təxribatçı əməllərinə son qoymaqdan ötrü "dəmir yumruq" işə düşdü!

Bu barədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin müharibədən sonrakı dövrlərdəki çıxışlarından bəzi məqamlara diqqət çəkmək istəyirik:

"İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı imkan verdi ki, Azərbaycan nəinki beynəlxalq hüququ bərpa etdi, bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə 44 gün ərzində Azərbaycan Ordusu əsl möcüzələr yaratdı:

"44 gün ərzində şanlı Ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur".

Xalq öz sevimli rəhbərinin arxasında sonadək əzmlə dayandı!

Hərbi səfərbərlik xidməti qarşısında gecə-gündüz növbə gözləyən Azərbaycan gənci orduda döyüşmək istəyini nümayiş etdirirdi.

Əsgər və zabitlərimiz kütləvi qəhrəmanlıqlar göstərir, hər gün bir neçə yaşayış məntəqəsini işğaldan azad edirdilər.

Müzəffər Ali Baş Komandan İlham Əliyev sistemli şəkildə televiziya vasitəsilə xalqa müraciət edərək azad olunan kənd, şəhər və qəsəbələr barədə müjdələr verir, işğaldan qurtarılan yerlərdə üçrəngli bayrağımızı qürurla ucaldırdı!

Dünənədək lovğalıqla özünü "məğlubedilməz millət", ordularını "məğlubedilməz ordu" adlandıran haylar "dəmir yumruğ"un qarşısında davam gətirməyərək silah-sursatlarını ataraq arxalarına baxmadan qaçırdılar.

Azərbaycan Ordusu torpaqları işğaldan azad etməklə bərabər ədaləti, beynəlxalq hüququ da təmin edirdi.

4

Prezident İlham Əliyev Vyetnamda rəsmi səfərdədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 19-da Vyetnam Sosialist Respublikasına rəsmi səfərə gedib.

AZƏRTAC xəbər verir ki, Hanoyun Noi Bai Beynəlxalq Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Vyetnam Sosialist Respublikasının ədliyyə naziri Hoanq Than Tunq və digər rəsmi şəxslər qarşıladılar.

"Əməkdaşlığımız ölkələrimizə və xalqlarımıza nəzərəçarpan fayda gətirə biləcək böyük quruculuq potensialına malikdir"

Prezident İlham Əliyev Vyetnam Xəbər Agentliyinə müsahibə verib



Möhkəm, zamanın sınaqlarından çıxmış dostluğa əsaslanaraq, biz əlaqələrin gücləndirilməsini və qarşılıqlı faydalı tərəfdaşlığın genişləndirilməsini ardıcıl şəkildə davam etdirdik. 2014-cü ildə mənim Vyetnama ilk dövlət səfərim baş tutdu, artıq 2015-ci ilin mayında isə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanq Azərbaycana cavab səfəri etdi.

Keçən ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycana ilk dövlət səfəri dövlətlərarası münasibətlərimizdə yeni fəsil açdı. Aparılan konstruktiv danışıqlar energetika və investisiyalardan müdafiə və kibertəhlükəsizliyə qədər istiqamətlərin geniş spektrini əhatə etdi. Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın - Azərbaycan-Vyetnam əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldıran mühüm sənədin qəbul edilməsi məntiqi nəticə oldu. Bu səfər tərəfdaşlığın dərinləşdirilməsi və onun praktiki məzmunla zənginləşdirilməsi üzrə qarşılıqlı marağı bir daha nümayiş etdirdi.

Dövlət başçılarının siyasi təmasları ilə paralel olaraq, hökumətlərarası komissiyaların, müvafiq idarələrin, həmçinin parlamentlərarası dostluq qruplarının xətti ilə səmərəli dialoq aparılır. Bundan əlavə, iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyası arasında sıx əməkdaşlıq inkişaf edir.

Ölkələrimiz arasında ikitərəfli dialoq ilə yanaşı, beynəlxalq platformalarda, xüsusilə BMT, Qoşulmama Hərəkatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində də sıx qarşılıqlı əlaqə qurulub.

Sözsüz ki, bütün bunlar Bakı ilə Hanoy arasında çoxillik siyasi dialoqun bərabərhüquqluluq və qarşılıqlı maraqların nəzərə alınması əsasında dayanıqlı şəkildə dərinləşməsini göstərir.

2

Ağdamın dirçəlişi: dağıntılardan quruculuğa, həsrətdən qayıdışa



Bu gün Ağdam Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərinin ən mühüm mərkəzlərindən biridir. Şəhərin inkişafı təsadüfi və pərakəndə şəkildə deyil, uzunmüddətli strateji planlaşdırma əsasında həyata keçirilir. "Ağdam şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Ağdamın Baş planı işğaldan azad edilmiş rayonların şəhərləri arasında ilk təsdiqlənən plan olub. Sənəddə şəhərin müasir urbanizasiya prinsipləri əsasında inkişafı, yaşayış və ictimai məkanların yaradılması, nəqliyyat şəbəkəsinin formalaşdırılması, yaşıllıqların genişləndirilməsi və dayanıqlı infrastrukturun qurulması nəzərdə tutulur.

7

Çoxvektorlu və strateji tərəfdaşlıq diplomatiyası

Azərbaycanın dünyanın aparıcı güc mərkəzləri ilə qurduğu bərabərhüquqlu əməkdaşlıq modeli ölkəmizin qlobal nüfuzunun və beynəlxalq etimadın bariz göstəricisidir



Qlobal güc mərkəzləri ilə uğurlu diplomatiyanın ən dinamik və məhsuldar istiqamətlərindən biri isə Avropa qitəsi ilə münasibətlərdir. Bu baxımdan 2026-cı il noyabrın 12-də Dublin şəhərində Prezident İlham Əliyev ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem arasında keçirilən görüşdə "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin mübadiləsi xüsusi əhəmiyyət daşıyır.

5



"Əməkdaşlığımız ölkələrimizə və xalqlarımıza nəzərəçarpan fayda gətirə biləcək böyük quruculuq potensialına malikdir"

Prezident İlham Əliyev Vyetnam Xəbər Agentliyinə müsahibə verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vyetnam Xəbər Agentliyinə (VNA) müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.

- Hörmətli cənab Prezident, ikitərəfli əməkdaşlığın tarixində yeni mərhələnin başlanması ilə əlamətdar olacaq Vyetnama qarşıdakı rəsmi səfəriniz ərəfəsində Siz Azərbaycan ilə Vyetnam arasında siyasi dialoqun hazırkı vəziyyətini necə xarakterizə edərdiniz?

- Azərbaycan-Vyetnam münasibətlərinin təxminən yetmişillik tarixindən bəhs edərkən, hər şeydən əvvəl, bu dostluğun köklərinə qayıtmaq və onun əsasını qoymuş iki böyük lideri səmimi minnətdarlıq hissi ilə xatırlamaq istəyirəm.

Sözsüz ki, başlanğıc nöqtəsi 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Minin Bakıya unudulmaz səfəri idi. 1983-cü il əsl sıçrayışla əlamətdar oldu. Həmin vaxt Sov. İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini Heydər Əliyevin başçılığı ilə sovet nümayəndə heyəti Vyetnama səfər etdi. Azərbaycan xalqının Ümummilli Liderinin təşəbbüsü ilə bu səfərin müddəti səkkiz günə qədər uzadıldı və ölkənin əsas regionlarını əhatə etdi. Həmin vaxt əldə olunan razılaşmalar Vyetnam iqtisadiyyatının inkişafına güclü təkan verdi və çoxillik əməkdaşlığın istiqamətini müəyyənləşdirdi.

Möhkəm, zamanın sınaqlarından çıxmış dostluğa əsaslanaraq, biz əlaqələrin gücləndirilməsini və qarşılıqlı faydalı tərəfdaşlığın genişləndirilməsini ardıcıl şəkildə davam etdirdik. 2014-cü ildə mənim Vyetnama ilk dövlət səfərim baş tutdu, artıq 2015-ci ilin mayında isə Vyetnam Sosialist Respublikasının Prezidenti cənab Çıonq Tan Şanq Azərbaycana cavab səfəri etdi.

Keçən ilin mayında Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın Azərbaycana ilk dövlət səfəri dövlətlərarası münasibətlərimizdə yeni fəsil açdı. Aparılan konstruktiv danışıqlar energetika və investisiyalardan müdafiə və kibertəhlükəsizliyə qədər istiqamətlərin geniş spektrini əhatə etdi. Strateji tərəfdaşlıq haqqında Birgə Bəyanatın - Azərbaycan-Vyetnam əlaqələrini keyfiyyətcə yeni səviyyəyə qaldıran mühüm sənədin qəbul edilməsi məntiqi nəticə oldu. Bu səfər tərəfdaşlığın dərinləşdirilməsi və onun praktiki məzmunla zənginləşdirilməsi üzrə qarşılıqlı marağı bir daha nümayiş etdirdi.

Dövlət başçılarının siyasi təmasları ilə paralel olaraq, hökumətlərarası komissiyaların, müvafiq idarələrin, həmçinin parlamentlərarası dostluq qruplarının xətti ilə səmərəli dialoq aparılır. Bundan əlavə, iki ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Vyetnam Kommunist Partiyası arasında sıx əməkdaşlıq inkişaf edir.

Ölkələrimiz arasında ikitərəfli dialoq ilə yanaşı, beynəlxalq platformalarda, xüsusilə BMT, Qoşulmama Hərəkatı, AQEM və digər beynəlxalq təşkilatlar çərçivəsində də sıx qarşılıqlı əlaqə qurulub.

Sözsüz ki, bütün bunlar Bakı ilə Hanoy arasında çoxillik siyasi dialoqun bərabərhüquqluluq və qarşılıqlı maraqların nəzərə alınması əsasında dayanıqlı şəkildə dərinləşməsini göstərir.

- İqtisadi-ticari münasibətlərin əsas nəticələri, istiqamətləri və inkişaf potensialı hansılardır?

- Azərbaycan-Vyetnam iqtisadi-ticari əlaqələri ardıcıl şəkildə inkişaf edir. 2025-ci ilin yekunlarına görə, iki ölkə arasında ticarət dövriyyəsi 150 milyon dollardan artıq olub. Bununla yanaşı, bu göstərici hələ ki, real imkanları əks etdirmir: hər iki tərəf qarşılıqlı ticarətdə əhəmiyyətli artım üçün böyük potensiala malikdir.

Sovet İttifaqı dövründən bəri tarixən tərəfdaşlığımızın təməlini təşkil edən neft sektoru qarşılıqlı fəaliyyətin əsas istiqaməti statusunu qoruyub saxlayır. Bu kontekstdə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) ilə Vyetnam Milli Neft və Qaz Şirkəti (PetroVietnam) arasında əlaqələrin dərinləşdirilməsi xüsusi əhəmiyyət kəsb edir. 2025-ci ildə imzalanmış Anlaşma Memorandumu neft-qaz yataqlarının kəşfiyyatı və işlənilməsi, texniki xidmətlər və mütəxəssis hazırlığı kimi sahələrdə əməkdaşlığı nəzərdə tutur.

Vyetnam biznesinin Azərbaycan iqtisadiyyatında iştirakı da ikitərəfli münasibətlərin mühüm tərkib hissəsidir. Tikinti və infrastrukturun inkişafı, həmçinin günəş və külək enerjisi sahələrində layihələrin həyata keçirilməsində maraqlı olduğunu bildirən "ROX Group" bunun bariz nümunəsidir. 2026-cı ilin sentyabrında Bakıda keçirilən İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "ROX Group" ilə müvafiq sənədlər imzalanıb.

Tranzit daşımaları sahəsində də müsbət dinamika müşahidə olunur. 2026-cı ilin yanvar-sentyabr aylarında bu daşımaların həcmi 2025-ci ilin eyni dövrü ilə müqayisədə təxminən altı dəfə artıb və 8 min tondan çox olub.

Azərbaycanın nəqliyyat və logistika infrastrukturundan Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat dəhlizi vasitəsilə Vyetnamdan Avropaya və əks istiqamətdə yüklərin daşınması üçün səmərəli şəkildə istifadə etmək olar. Bu, ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərində rolunu gücləndirməklə yanaşı, əlavə iqtisadi dəyər və əməkdaşlıq üçün yeni imkanlar yaradılmasına və ikitərəfli əlaqələrin genişlənməsinə sanballı töhfə verəcək.

Ölkələrimiz ticarət dövriyyəsini əhəmiyyətli dərəcədə artırmaq və enerji, sənaye, kənd təsərrüfatı, nəqliyyat-logistika sektorlarında - bir sözlə, demək olar ki, bütün aparıcı sahələrdə genişmiqyaslı birgə təşəbbüsləri uğurla həyata keçirmək üçün kifayət qədər resurslara malikdir. Əminəm ki, planauyğun birgə iş ən qısa müddətdə əhəmiyyətli praktik nəticələr əldə etməyə imkan verəcək.

- Humanitar, təhsil və mədəni əlaqələr ölkələrimizin bir-birinə yaxınlaşmasında hansı rol oynayır və bu prosesə hansı təşəbbüslər imkan yaradır?

- Humanitar əməkdaşlıq xalqlarımızı və dövlətlərimizi birləşdirən möhkəm körpü rolunu oynayır. Onilliklər ərzində bu əlaqələr təhsil təşəbbüsləri, xeyriyyə layihələri və müntəzəm mədəni mübadilə vasitəsilə davamlı olaraq möhkəmləndirilib.

Heydər Əliyev Fondu bu prosesdə xüsusi rola malikdir və Vyetnamla humanitar münasibətlərin dərinləşməsinə fəal surətdə kömək edir. Fondun fəaliyyət istiqamətləri Ha Giang əyalətində ibtidai məktəbin tikintisi də daxil olmaqla, infrastruktur təşəbbüslərindən tutmuş müxtəlif təhsil proqramlarının dəstəklənməsinə qədər geniş spektri əhatə edir.

Fondun vitse-prezidenti Leyla Əliyevanın 2025-ci ildə Vyetnama səfəri bu əlaqələrin möhkəmləndirilməsində mühüm addım olub. Səfər zamanı ölkə rəhbərləri, yaradıcı ziyalıların nümayəndələri və Azərbaycan universitetlərinin vyetnamlı məzunları ilə görüşlər keçirilib. Hanoy Ticarət və Turizm Kollecinə də maliyyə dəstəyi göstərilib.

Xeyriyyəçiliklə yanaşı, elm və təhsil əməkdaşlığı da dinamik şəkildə inkişaf edir. Hər iki ölkənin aparıcı universitetləri bir sıra tərəfdaşlıq müqavilələri və memorandumlar imzalayıb. Vyetnam nümayəndələri Qoşulmama Hərəkatına üzv dövlətlərin vətəndaşları üçün mənim sərəncamıma uyğun olaraq yaradılmış təhsil qrant proqramlarında iştirak etmək imkanına malikdirlər.

Sevindirici haldır ki, bu akademik əlaqələr zəngin tarixi ənənələrə əsaslanır: hətta sovet dövründə belə, təxminən 5 min Vyetnam vətəndaşı Azərbaycanda təhsil alıb və sonradan əldə etdikləri bilik və təcrübəni vətənlərinin rifahı naminə uğurla tətbiq edib. İki ölkə arasında uzunmüddətli dostluğun rəmzi 2025-ci ildə Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi cənab To Lamın iştirakı ilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Ho Şi Minin Memorial otağının açılışı olub. Həmin açılış bu görkəmli dövlət xadiminin anadan olmasının 135-ci ildönümünə təsadüf edib.

Qarşılıqlı mədəni fəaliyyət təhsil əlaqələrini ahəngdar şəkildə tamamlayır. Azərbaycanda ənənəvi olaraq Vyetnam Günləri keçirilir. 2026-cı ildə bu təşəbbüs keyfiyyətcə yeni səviyyəyə çatdı: dördüncü festival ilk dəfə olaraq iki şəhəri - Bakı və Qəbələni əhatə etdi. Digər əhəmiyyətli mədəni hadisə isə məşhur vyetnamlı şair Mai Van Phanın "Gün doğarkən" şeirlər toplusunun Azərbaycanda nəşr edilməsi oldu.

Ümumilikdə, xalqlarımız arasında mədəni dialoq on illərdir davam edir. Hələ 1955-ci ildə bəstəkar Qara Qarayev ilk Sovet-Vyetnam sənədli filmi üçün "Vyetnam süitası"nı yaradıb. Bu yaradıcı əlaqələr sonradan rejissor Əjdər İbrahimov tərəfindən daha da möhkəmləndirilib. O, 1959-cu ildən 1962-ci ilə qədər Vyetnamda yaşayıb və çalışıb, milli kino məktəbinin ön sıralarında olub, yerli rejissorların və aktyorların yetişdirilməsinə kömək göstərib və ölkənizə bir neçə kitab həsr edib. Onlardan biri - "Vyetnamda gördüklərim" Vyetnam dilinə tərcümə edilib, bu kitabın təqdimatı isə bu il Hanoyda keçirilib.

Möhkəm dostluq bağları təkcə birgə layihələrdə deyil, həm də çətin anlarda köməyə gəlməyə hazır olmaqda özünü göstərir. 2024-cü ildə Vyetnamda baş verən "Yaqi" fırtınasının dağıdıcı nəticələrini aradan qaldırmaq, həmçinin 2025-ci ildə genişmiqyaslı daşqınların vurduğu ziyanın öhdəsindən gəlmək üçün Azərbaycan maliyyə yardımı göstərib.


- Vyetnama qarşıdakı səfərinizdən gözləntiləriniz nələrdir?

- Dost Vyetnama səfərimi səbirsizliklə gözləyirəm. Əminəm ki, bu, Azərbaycan və Vyetnam arasında qarşılıqlı faydalı tərəfdaşlığın dərinləşdirilməsində daha bir mühüm addım olacaq.

Bu gün Vyetnam Cənub-Şərqi Asiyada dinamik inkişaf edən ölkədir, Azərbaycan isə Cənubi Qafqazda əsas logistika və energetika habıdır. Qüvvələrimizi birləşdirərək yeni bazarlara çıxa, birgə layihələr həyata keçirə, biznes və investisiya üçün əlavə imkanlar yarada bilərik. Sözsüz ki, əməkdaşlığımız ölkələrimizə və xalqlarımıza nəzərəçarpan fayda gətirə biləcək böyük quruculuq potensialına malikdir.

Prezident İlham Əliyevin sosial media hesablarında Vyetnam Sosialist Respublikasına rəsmi səfəri ilə bağlı videoçarx paylaşılıb

https://www.facebook.com/reel/1162884529770494



M.M.Abbaszadənin Bakı Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məleykə Mehdi qızı Abbaszadə Bakı Dövlət Universitetinin rektoru təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 noyabr 2026-cı il

Azərbaycan-Vyetnam: uzaq coğrafiya, yaxın münasibət

İki ölkənin iqtisadi maraqları yeni əməkdaşlıq perspektivlərindən xəbər verir

Dünyanın iqtisadi xəritəsində yeni tərəfdaşlıqların və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modellərinin əhəmiyyəti getdikcə artır. Qlobal iqtisadi proseslərin sürətlə dəyişdiyi, beynəlxalq ticarət və investisiya münasibətlərinin yeni məzmun daşıdığı bir zamanda Azərbaycan iqtisadi tərəfdaşlıq coğrafiyasını genişləndirməyə xüsusi önəm verir. Bu gün Cənub-Şərqi Asiyanın sürətlə inkişaf edən ölkələrindən biri olan Vyetnamla münasibətlər iqtisadi əlaqələrin şaxələndirilməsi, yeni bazarlara çıxış imkanlarının genişləndirilməsi və qarşılıqlı faydalı əməkdaşlığın inkişafından dolayı xüsusi əhəmiyyət kəsb edir.

Azərbaycan-Vyetnam iqtisadi münasibətlərinin əsas istiqamətlərindən birini qarşılıqlı ticarət təşkil edir. Azərbaycan-Vyetnam ticarət əlaqələri son illər dəyişkən dinamika nümayiş etdirir. Azərbaycan Xarici İşlər Nazirliyinin məlumatına görə, 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 594,6 milyon dollar təşkil edib. 2024-cü ildə isə bu göstərici 223,93 milyon dollara qədər azalıb. Rəqəmlər qarşılıqlı ticarətdə mövcud dalğalanmaları göstərməklə yanaşı, iqtisadi əlaqələrin genişləndirilməsi və ticarət dövriyyəsinin artırılması üçün əhəmiyyətli potensialın olduğunu da ortaya qoyur.

Vyetnamın elektronika, tekstil, kənd təsərrüfatı və emal sənayesi üzrə istehsal imkanları Azərbaycan bazarı üçün maraq doğurur. Azərbaycan isə neft və neft məhsulları ilə yanaşı, kənd təsərrüfatı, kimya sənayesi və neftdənkənar digər məhsulların ixracını artıra bilər.

Enerji sektoru iki ölkə arasında əməkdaşlığın ənənəvi və artıq əməli nəticələr vermiş istiqamətidir. Bu əlaqələrin tarixi kökləri də maraq doğurur. Azərbaycan mütəxəssislərinin sovetlər dönəmində Vyetnamın neft sənayesinin inkişafında iştirakı iki ölkə arasında enerji sahəsində əməkdaşlığın formalaşmasına təkan verib. Bu ənənə hazırda SOCAR və Vyetnamın milli neft-qaz şirkəti "Petrovietnam" arasında əməkdaşlıqla davam etdirilir. 2025-ci il mayın 7-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri zamanı SOCAR ilə "Petrovietnam" arasında Əməkdaşlıq Memorandumu imzalanması münasibətlərin inkişafında mühüm mərhələ olub. Sənəd neft-qaz yataqlarının kəşfiyyatı və işlənməsi, texniki xidmətlər, emal və digər istiqamətlərdə əməkdaşlığın genişləndirilməsi üçün imkanlar yaradır.

2026-cı il oktyabrın 16-da Azərbaycanın energetika naziri Pərviz Şahbazov ilə Vyetnamın sənaye və ticarət nazirinin müavini Fan Thi Tanq arasında görüş baş tutub. Tədbirdə hər iki ölkənin müvafiq qurumlarının nümayəndələri də iştirak ediblər. Müzakirələr zamanı bildirilib ki, 2023-cü ildən indiyədək Vyetnama 1,1 milyon tondan çox Azərbaycan nefti ixrac olunub. Görüşdə tərəflər neft və qaz hasilatı, neft emalı, neft-kimya və mayeləşdirilmiş təbii qazın tədarükü sahələrində əməkdaşlığın genişləndirilməsi məsələləri də yer alıb. Burada neft-qaz hasilatı, emal, neft-kimya, neft-mədən xidmətləri və mayeləşdirilmiş təbii qaz təchizatı imkanları da nəzərdən keçirilib.

Əməkdaşlığın digər perspektivli istiqaməti bərpaolunan enerji sahəsidir. Həmin görüş çərçivəsində Vyetnamın "ROX Group" şirkəti ilə tərəfdaşlıq çərçivəsində Naxçıvanda günəş-elektrik stansiyalarının, Bakı ətrafında isə külək enerjisi layihələrinin həyata keçirilməsi imkanları müzakirə olunub. Bu təşəbbüslər enerji tərəfdaşlığının ənənəvi karbohidrogen sektorundan kənara çıxaraq daha geniş sahələri əhatə edə biləcəyini göstərir.

İki ölkə arasında iqtisadi əlaqələrin dərinləşdirilməsində qarşılıqlı investisiyalar və biznes əlaqələri də mühüm rol oynayır. Azərbaycanın sənaye parkları, əlverişli coğrafi mövqeyi və regional bazarlara çıxış imkanları Vyetnam investorları üçün cəlbedici perspektivlər yaradır. Vyetnamın istehsal, tekstil, elektronika və kənd təsərrüfatı sahələrindəki təcrübəsi isə Azərbaycanda birgə müəssisələrin yaradılması üçün imkanlar açır.

İqtisadi əlaqələrin inkişafında qarşılıqlı investisiyaların təşviqi və biznes dairələri arasında birbaşa təmasların genişləndirilməsi də xüsusi əhəmiyyət daşıyır. Bu baxımdan, mövcud investisiya əlaqələri gələcək əməkdaşlığın dərinləşdirilməsi üçün geniş potensial yaradır. Hazırda ölkəmizdə Vyetnam investisiyalı 7 şirkət fəaliyyət göstərir. 2025-ci ilin mayında Bakıda keçirilən yüksəksəviyyəli görüşlər, həmin ilin iyulunda Hanoyda Azərbaycan-Vyetnam Birgə Biznes Şurasının ilk iclasının və biznes-forumunun təşkili investisiya əməkdaşlığının genişləndirilməsi baxımından əhəmiyyətli addımlar olub. Forum çərçivəsində bərpaolunan enerji, kənd təsərrüfatı və tekstil sahələrində əməkdaşlıq memorandumlarının imzalanması yeni layihələr üçün zəmin yaradıb.

Bu istiqamətdə təmaslar indi də davam etdirilir. Bir həftə əvvəl - noyabrın 13-də Azərbaycan nümayəndə heyətinin Vyetnama səfəri iki ölkə arasında iqtisadi əlaqələrin möhkəmləndirilməsi və yeni əməkdaşlıq imkanlarının araşdırılması baxımından diqqətəlayiq hadisədir. Səfər Azərbaycan və Vyetnam arasında mövcud tərəfdaşlığın bir qədər də genişləndirilməsi, biznes əlaqələrinin inkişafı və qarşılıqlı maraq doğuran sahələrdə birgə təşəbbüslərin təşviqi üçün əlavə imkanlar yaradır.

Nəqliyyat və logistika sahəsində əməkdaşlıq da Azərbaycan-Vyetnam iqtisadi münasibətlərinin inkişafı üçün yeni yollar açır. Ölkəmizin əlverişli coğrafi mövqeyi və müasir nəqliyyat infrastrukturu Vyetnamla Avropa arasında yükdaşımaların təşkilində Azərbaycanın rolunu artıra bilər. Xüsusilə Orta dəhliz vasitəsilə Vyetnam məhsullarının Azərbaycan üzərindən Avropa bazarlarına çatdırılması üçün əlavə imkanlar mövcuddur. Ona görə də nəqliyyat marşrutlarının şaxələndirilməsi və logistika əlaqələrinin gücləndirilməsi hər iki ölkənin iqtisadi maraqlarına xidmət edə bilər.

Çin və Mərkəzi Asiyadan başlayaraq Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə vasitəsilə Avropaya uzanan Orta dəhliz Vyetnam üçün də alternativ yükdaşıma imkanları yaradır. Azərbaycan Energetika Nazirliyinin 16 oktyabr 2026-cı il tarixli məlumatına əsasən, Vyetnamla əlaqəli tranzit yüklərinin ölkəmizin ərazisindən daşınması 2025-ci ildə əvvəlki illə müqayisədə 200 faizdən çox, 2026-cı ilin yanvar-sentyabr aylarında isə təxminən 600 faiz artıb. Bununla yanaşı, "Silk Way West Airlines" şirkətinin Vyetnamda nümayəndəliyinin açılması və birbaşa yük aviareyslərinin təşkili ilə bağlı planlar logistika əlaqələrinin genişlənməsinə, yükdaşımaların sürətlənməsinə və iki ölkə arasında ticarət dövriyyəsinin artmasına xidmət edə bilər.

Bütün bunlar Azərbaycan-Vyetnam iqtisadi münasibətlərinin geniş inkişaf potensialına malik olduğunu göstərir. Ticarətin şaxələndirilməsi, enerji və investisiya əməkdaşlığının genişləndirilməsi, eləcə də nəqliyyat-logistika imkanlarından səmərəli istifadə iki ölkə arasında iqtisadi tərəfdaşlığın daha yüksək səviyyəyə çatmasına şərait yarada bilər. Siyasi dialoqun möhkəmlənməsi və qarşılıqlı iqtisadi maraqların uzlaşdırılması isə bu münasibətlərin uzunmüddətli və dayanıqlı inkişafı üçün zəmin formalaşdırır.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

E.S.Babayevin Bakı Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elçin Səfəralı oğlu Babayev Bakı Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 noyabr 2026-cı il

M.M.Abbaszadənin Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məleykə Mehdi qızı Abbaszadə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 19 noyabr 2026-cı il

Azərbaycan Prezidentinin səfəri Vyetnam mediasının diqqət mərkəzindədir


Vietnam+ Tiếng Việt English Français Español 中文 Русский Shahin Jafarov

CHÍNH TRỊ

Đưa quan hệ Đối tác chiến lược Việt Nam-Azerbaijan đi vào chiều sâu, hiệu quả

Chuyến thăm Việt Nam của Tổng thống Ilham Aliyev mở cơ hội cụ thể hóa quan hệ Đối tác chiến lược, thúc đẩy hợp tác năng lượng, thương mại và nhiều lĩnh vực.

18/11/2026 10:06

ĐỌC NHIỀU

1 Ông Trần Quốc Bình được chỉ định giữ chức Phó Bí thư Tỉnh ủy Hưng Yên

2 Hưng Yên lên lộ trình trở thành thành phố trực thuộc Trung ương

3 [Photo] Tổng Bí thư, Chủ tịch nước dự Lễ kỷ niệm 30 năm Ngày thành lập Hội đồng Lý luận Trung ương

4 Ban Tổ chức Trung ương ban hành Hướng dẫn về sinh hoạt tổ đảng

5 Việt Nam-EU: Nâng tầm quan hệ, mở rộng hợp tác

INFOGRAPHICS

Tổng Bí thư Tô Lâm và Tổng thống Azerbaijan Ilham Aliyev chụp ảnh chung. (Ảnh: Thống Nhất/TTXVN)

Nhận lời mời của Tổng Bí thư, Chủ tịch nước Tô Lâm và Phu nhân, Tổng


Bắc Ninh

Gìn giữ và phát huy truyền thống hữu nghị Việt Nam-Azerbaijan

ĐỌC NHIỀU NHẤT

Với bề dày lịch sử hơn 30 năm, quan hệ hữu nghị và hợp tác giữa Việt Nam và Azerbaijan đã vượt qua nhiều giai đoạn biến động của tình hình khu vực và thế giới, tiếp tục gắn kết chặt chẽ với sự tin cậy chính trị ngày càng được củng cố. Đứng trước giai đoạn phát triển mới của mỗi quốc gia và quan hệ hai nước, Việt Nam và Azerbaijan tiếp tục bền bỉ vun trồng để "cây xanh của tình hữu nghị" vươn cao và cho thêm nhiều "trái ngọt".

Việt Nam và Azerbaijan chính thức thiết lập quan hệ ngoại giao vào năm 1992, nhưng sớt đây gắn kết giữa hai quốc gia, hai dân tộc đã được đặt nền nhiều năm trước đó, với dấu mốc lịch sử là chuyến thăm của Chủ tịch Hồ Chí Minh đến Azerbaijan năm 1959. Trong suốt nhiều thập niên đồng hành, hai nước đã cùng nhau xây dựng một mối quan hệ hữu nghị truyền thống và hợp tác nhiều mặt trên cơ sở tin cậy chính trị, bình đẳng và tôn trọng lẫn nhau.


Nhân Dân

Gìn giữ và phát huy truyền thống hữu nghị Việt Nam-Azerbaijan

TIN ĐỌC NHIỀU


Вьетнам-Азербайджан: Укрепление дружбы, открывающие светлое будущее.


Quân đội nhân dân

Chính trị / Các văn đề

Xã luận

Đưa quan hệ Việt Nam - Azerbaijan bước sang giai đoạn phát triển mới

QĐND

Hôm nay (19-11), Tổng thống Cộng hòa Azerbaijan Ilham Aliyev và phu nhân bắt đầu thăm chính thức Việt Nam theo lời mời của Tổng Bí thư, Chủ tịch nước Tô Lâm và phu nhân. Đây là chuyến thăm chính thức Việt Nam lần thứ hai của Tổng thống Ilham Aliyev kể từ sau chuyến thăm lần đầu tiên vào năm 2014. Chuyến thăm góp phần đưa quan hệ Việt Nam-Azerbaijan bước sang giai đoạn phát triển mới, tương xứng với tầm vóc của khuôn khổ đối tác chiến lược.

Việt Nam và Azerbaijan thiết lập quan hệ ngoại giao năm 1992, nhưng trên thực tế, quan hệ hai nước đã được đặt nền móng từ chuyến thăm lịch sử của Chủ tịch Hồ Chí Minh đến Azerbaijan năm 1959 và được các thế hệ lãnh đạo, nhân dân hai nước không ngừng vun đắp, xây dựng suốt nhiều thập kỷ, trong đó có chuyến thăm của lãnh tụ dân tộc Azerbaijan Heydar Aliyev đến Việt Nam năm 1983. Những dì sản tình thân, tư tưởng và tầm cao văn hóa của Chủ tịch Hồ Chí Minh và lãnh tụ Heydar Aliyev đến nay vẫn tiếp tục soi đường chỉ lối để hai đất nước ngày càng thắt chặt và phát triển quan hệ hữu nghị, hợp tác, vì hòa bình, phồn vinh của mỗi nước, khu vực và thế giới. Việc hai nước nâng cấp quan hệ lên đối tác chiến lược nhân chuyến thăm cấp nhà nước tới Azerbaijan hồi tháng 5-2025 của Tổng Bí thư (nay là Tổng Bí thư, Chủ tịch nước) Tô Lâm trở thành dấu mốc có ý nghĩa lịch sử, mở ra giai đoạn phát triển mới trong quan hệ song phương, thể hiện quyết tâm chính trị và tầm nhìn chung của lãnh đạo hai nước về triển vọng quan hệ song phương.

Azərbaycan Prezidenti İlham Əliyevin Vyetnama noyabrın 19-da başlayan rəsmi səfərinə bu ölkənin mediası böyük diqqət ayırıb.

AZƏRTAC xəbər verir ki, nüfuzlu qəzetlər, xəbər portalları, onlayn nəşrlər iki ölkə arasında dövlət başçıları diplomatiyasının əlaqələrin inkişafı üçün oynadığı böyük rola, Azərbaycan-Vyetnam strateji tərəfdaşlıq münasibətlərinə dair çoxsaylı məqalələr, xəbərlər yayıb.

"Vietnam+" nəşrinin "Vyetnam-Azərbaycan strateji tərəfdaşlığını dərinləşdirmək və onun səmərəliliyini artırmaq" başlıqlı məqaləsində Prezident İlham Əliyevin Vyetnama səfərinin iki ölkə arasında enerji, ticarət və bir çox digər sahədə əməkdaşlığı təşviq etməklə, strateji tərəfdaşlığı konkretləşdirmək üçün imkanlar açdığı vurğulanıb. Məqalədə iki xalq arasında dostluğun tarixindən söz açılaraq, Prezident Ho Şi Minin 1959-cu ildə Azərbaycana, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin isə 1983-cü ildə Vyetnama səfərlərinin bu dostluğun təməlini qoyduğu bildirilib. Qeyd olunub ki, Azərbaycan öz inkişaf yolu boyunca Vyetnama hər zaman səmimi dəstək və rəğbət göstərib, Vyetnam isə Azərbaycanla dostluq münasibətlərinə və əməkdaşlığa daim yüksək dəyər verib. Məqalədə ötən müddətdə ali və yüksək səviyyədə həyata keçirilmiş səfərlərin münasibətlərin inkişafına verdiyi töhfələr vurğulanıb.

BACNINHTV-nin saytındakı "Vyetnam və Azərbaycan arasında dostluq ənənələrinin qorunması və təşviqi" adlı yazıda iki ölkə arasında 30 ildən çox tarixi olan əməkdaşlığın getdikcə güclənən siyasi etimadla sıx bağlı olduğu vurğulanıb. Onilliklər boyu davam edən tərəfdaşlıq dövründə iki ölkə siyasi etimada, bərabərliyə və qarşılıqlı hörmətə əsaslanan ənənəvi dostluq və çoxşaxəli əməkdaşlıq qurub.

"Nhândân" (Xalq) qəzetinin saytındakı oxşar məqalədə iki ölkənin ənənəvi dostluq və geniş əməkdaşlıq potensialına əsaslanaraq, ötən il münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb. Bu, əməkdaşlıq prosesində tarixi bir mərhələ olub, hər iki ölkə liderinin əlaqələrin perspektivinə dair siyasi iradəsini və ortaq baxışını nümayiş etdirir. Qeyd olunub ki, yeni çərçivə Vyetnam ilə Azərbaycan arasında iqtisadiyyat, ticarət, investisiya, enerji, nəqliyyat və logistika sahələrindəki ikitərəfli münasibətlərin səmərəliliyini daha da artırıb.

"Vietnam.vn" saytındakı "Vyetnam-Azərbaycan: parlaq gələcək üçün dostluğun möhkəmləndirilməsi" adlı məqalədə Xəzər dənizi sahilindəki neft quyularından müasir külək və günəş-elektrik stansiyalarına qədər, Prezident Ho Şi Minin tarixi səfərindən Qafqaz bölgəsində Vyetnam şirkətləri tərəfindən araşdırılan investisiya layihələrinə qədər Vyetnam-Azərbaycan münasibətləri uzun bir yol qət etdiyi bildirilib. Qeyd olunub ki, 60 ildən çoxdur möhkəmlənən dostluq əməkdaşlığın yeni, daha mənalı və perspektivli bir mərhələsinin yolunu açır. Prezident İlham Əliyevin Vyetnama rəsmi səfəri hər iki ölkəyə keçmişi qiymətləndirmək və əməkdaşlıq üçün yeni üfüqləri araşdırmaq imkanı verəcək.

Oxşar mövzuda məqalələr Vyetnamın digər bir neçə media orqanında da yayımlanıb.

Milli Məclisin Sədri Sahibə Qafarova MDB PA-nın şura iclasında iştirak edib

Noyabrın 19-da Türkmənistanın Avaza şəhərində MDB Parlamentlərarası Assambleyasının şura iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Milli Məclisin Sədri Sahibə Qafarova iclasda iştirak edib.

İclasda bir sıra təşkilati məsələlərə baxılıb və müvafiq qərarlar qəbul olunub.

"Azərbaycan"







Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistan Məclisinin Sədri Dünyagözəl Qulmanova ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistana işgüzar səfəri çərçivəsində Türkmənistan Məclisinin Sədri Dünyagözəl Qulmanova ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüş zamanı tərəflər bundan öncəki görüşləri xatırlayaraq, yenidən bir araya gəlməkdən məmnunluqlarını ifadə ediblər. Azərbaycan ilə Türkmənistan arasında dostluq və qardaşlıq münasibətlərinin bütün istiqamətlər üzrə uğurla inkişaf etdiyi qeyd olunub.

Azərbaycan ilə Türkmənistan arasında münasibətlərin ortaq din, tarix və mədəniyyət üzərində qurulduğu, dövlət başçılarının birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələrin bütün istiqamətlər üzrə hərtərəfli inkişaf etdiyi vurğulanıb. Qeyd olunub ki, parlamentlər də dövlət başçılarının müəyyən etdiyi siyasi xəttin dəstəklənməsinə çalışırlar. Beynəlxalq forumlar və tədbirlər çərçivəsində təmasların ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsinin göstəricisi olduğu vurğulanıb. Milli Məclisin Sədri Sahibə Qafarova MDB Parlamentlərarası Assambleyasının tədbirinin yüksək səviyyədə təşkilinə görə təbriklərini çatdırıb.

Söhbət zamanı parlamentlərarası dostluq qruplarının qarşılıqlı fəaliyyətinin və digər formatlarda əməkdaşlığın daha da gücləndirilməsinin vacibliyi qeyd edilib.

Görüşdə parlamentlərarası əlaqələrin və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın bundan sonra da genişləndirilməsi istiqamətində birgə səylərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

"Azərbaycan"

Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyası Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb

Milli Məclisin Sədri Sahibə Qafarova Türkmənistana işgüzar səfəri çərçivəsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb.



MDB Parlamentlərarası Assambleyasının Türkmənistanda keçirilən şura və 61-ci plenar iclasları çərçivəsində reallaşdırılan görüşdə MDB PA-nın ikitərəfli və çoxtərəfli münasibətlərin inkişaf etdirilməsi üçün yaxşı platforma olduğu diqqətə çatdırılıb. Bildirilib ki, hər iki ölkənin parlamentləri ölkələrimizin liderlərinin müəyyən etdiyi siyasi xəttə dəstək verərək, əlaqələrin hərtərəfli gücləndirilməsinə sadiqdirlər.

Görüşdə parlament diplomatiyasının əhəmiyyəti vurğulanıb, parlamentlərarası əlaqələrin inkişaf perspektivləri müzakirə olunub. Qeyd olunub ki, bu baxımdan Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi parlamentlərarası əməkdaşlıq komissiyası əlaqələrimizin daha da inkişaf etdirilməsində mühüm əhəmiyyətə malikdir.

Söhbət zamanı ölkələrimiz və xalqlarımız arasında mövcud olan əlaqələrin parlamentlər çərçivəsində də davam etdirildiyi qeyd olunub. Parlamentarilərin Rusiya və Azərbaycan arasında əməkdaşlığın bütün spektrinin gücləndirilməsindəki rolu vurğulanıb, beynəlxalq parlament platformalarında qarşılıqlı fəaliyyətin əhəmiyyəti diqqətə çatdırılıb.

Görüşdə iki ölkə arasında iqtisadi əlaqələrin genişlənməsində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə hökumətlərarası Dövlət Komissiyasının mühüm roluna da toxunulub, bununla yanaşı humanitar əlaqələrin vacibliyi vurğulanıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.


"Azərbaycan"

"İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı imkan verdi ki, Azərbaycan nəinki beynəlxalq hüququ bərpa etdi, nəinki öz milli qürurunu bərpa etdi, bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz".

İlham ƏLİYEV

"Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat - bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt bir qələbə qazana bilməz".

İlham ƏLİYEV



Ədalətin Zəfər təntənəsi

Dünyada ədalət adlı bir gerçəklik var!

İnsanlar, xüsusən zəiflər daim onu seviblər, ona inanıblar!

Gözlədikləri ədalətə çata bilməyənlər isə üzlərini Tanrıya tutublar, ondan İlahi ədalətin bərpasını istəyiblər.

LAKİN...

Tarixi təcrübə və həyatda baş verənlər göstərir ki, ədalətə təkcə onu arzulamaqla, özünün səni tapacağını gözləməklə çatmaq həmişə mümkün olmur!

Ədaləti təkcə arzulamaq, istəmək, tələb etmək azdır!

Onun uğrunda yorulmadan mübarizə aparmalısan, çarpışmalısan!

Xüsusən də ədalətsizləri güclülər müdafiə edəndə!

Ədalətin bərpasına qoluzorlular mane olanda!

Tanrı da ədaləti sevəndir!

Odur ki, hərdən ədaləti ilahiləşdiririk!

İlahi ədalət isə gec-tez öz yerini tapır!

Ancaq oturub onu gözləməklə iş bitmir.

Ədaləti təmin etmək üçün daim mübarizə aparmalısan, daim güclənməlisən!

Tanrı ədalət uğrunda belə mübarizləri sevir və onlara arxa duraraq ilahi ədalətin bərpasına yardım göstərir.

Qarabağ ədalətinin öz yerini almasında da belə oldu!

❖ ❖ ❖

Azərbaycanın əlverişli geosiyasi mövqeyi, zəngin yeraltı və yerüstü sərvətləri təkcə ona faydalar gətirməyib.

Həm də düşmənlər qazandırıb.

Lakin həmin düşmənlər özlərini "dost" kimi təqdim edərək daim hiyləyə və məkrə üstünlük veriblər.

Necə deyərlər, üzdə gülüb, içlərində isə bədxahlıqlarından heç zaman qalmayıblar.

Biri özünü "böyük qardaş" kimi təqdim edib.

"Xilaskar" adı ilə ölkəmizi zəbt edərək uzun illər boyu neft-qaz sərvətlərimizi daşıyıb aparıb.

Torpaqlarımız hesabına əlaltısına, forpostuna dövlət yaradıb.

Zəif olduğumuz üçün müqavimət göstərə bilməmişik, məcburən tabe olmuşuq.

Lakin nankor millət verilənlərlə kifayətlənmək istəməyib.

Daha artığını qamarlamağa çalışıb.

Biz tək qaldığımız halda onun müdafiəçiləri, havadarları xeyli olub...

- Dünya ermənilyi daim sözünü deyib.
- Erməni diasporları korrupsiya yolu ilə müxtəlif dövlətlərin siyasətçilərini və parlament üzvlərini ələ alaraq onları öz müdafiəçilərinə çeviriblər.
- İkili standartlarla işləyən beynəlxalq qurum və təşkilatlar haqqı qoyub, nahaqqı dəstəkləyiblər.
- Beynəlxalq hüquq rüşvət qarşısında məğlub olaraq ayaqlar altında qalıb.
- Verilən vədlər boşa çıxıb, qəbul olunan qərar və sənədlər mənasız kağız parçasına çevrilib.

Bəli, ermənıyə torpağımızda özünə dövlət yaratmağa imkan verdik, qədim İrəvan xanlığını özlərinə paytaxt etmələrinə şərait yaratdıq.

Bütün bunları az hesab elədilər, qudurdular, daha artığına nail olmağa çalışdılar.

Həm də təkcə çalışmadılar, zorakılıqlara, silaha əl atdılar.

Müdafiəçiləri arxalarında durdular, torpaqlarımızın daha 20 faizini ələ keçirmələrinə hərbi-siyasi vasitələrlə yardım göstərdilər.

Biz isə rəhbərimizdən ayrı düşdüyümüzə, ən çətin və sınaqlı dövrlərdə ölkəmizə maymaqlar, qorxaqlar, təcrübəsizlər, səriştəsizlər və xəyanətkarlar başçılıq etdiklərindən min bir bəlalara düçar olduq:

- Soyqırımlarına məruz qaldıq;
- Əsir götürülərək işgəncələrlə üzləşdik, hətta bizi öldürdükdən sonra kütləvi məzarlıqlarımızı belə gizli saxladılar;
- Evlərimizi talan edib dağıtdılar, tikinti materiallarına çevirərək satıb pul-para qazandılar;
- Meşələrimizi, bağlarımızı qırıb yandırdılar;
- Yeraltı sərvətlərimizi çıxararaq daşıyıb apardılar;
- Mədəni-tarixi abidələrimizi məhv etdilər;
- Məscidlərimizdə mal-qara, donuz saxladılar;
- Qəbiristanlıqlarımızı yerlə yeksan etdilər;
- Özümüzü yurd-yuvalarımızdan didərgin salaraq məcburi köçkünə çevirdilər.

"Ədalətli dünya", insan hüquqlarını müdafiə edən təşkilatlar bütün bunları "görmədilər", kar, kor, lal oldular.

Görənləri isə...

BMT-nin Təhlükəsizlik Şurası Ermənistanın Azərbaycan torpaqlarının işğalı ilə bağlı dörd qətnamə qəbul etdi.

Hərdən qəbul etdiyi qərarların mürəkkəbi qurumamış onları icra edən BMT Azərbaycana gələndə otuz il ağzına su alaraq durdu.

Nə öz nüfuzunu düşündü, nə də Azərbaycanın düşdüyü ağır durumu.

Azərbaycan Prezidenti cənab İlham Əliyev sonuncu dəfə "ŞƏT plyus" forumunun Qırğızıstanda keçirilən görüşdəki çıxışında yenidən bu məsələyə toxunaraq dedi:

"BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş dörd qətnaməsi 30 ildən sonra, üç il əvvəl icra edildi. Azərbaycan artıq Ermənistana neft məhsulları tədarük edir və üçüncü ölkələrin yüklərinin tranzitini təmin edir. Ermənistanla birlikdə qarşılıqlı ticarətin həcminin artırılması, onun nomenklaturasının genişləndirilməsi və yeni yerüstü nəqliyyat kommunikasiyalarının yaradılması üzərində çalışırıq. Lakin təəssüf ki, BMT bu qətnamələrin icrasında heç bir rol oynamayıb. Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tamamilə özü bərpa edib. BMT Təhlükəsizlik Şurasının qətnamələrinin qısa müddətdə icrası üçün müvafiq mexanizmlərin hazırlanması tələb olunur. Bu, həyata keçirilərsə, BMT-nin nüfuzunun və təşkilatın münaqişələrin nizamlanmasındakı rolunun artmasına xidmət edər".

BMT-dən heç bir əməli kömək görməyən Azərbaycan digər beynəlxalq təşkilatlara - AŞPA-ya, Avropa İttifaqı Parlament Assambleyasına müraciət etdi.

Dəfələrlə korrupsiya qalmaqalları baş verən, deputatları rüşvətxorluqda ittiham olunan, hətta cəzalandırılan bu qurumlar açıq-aşkar ermənipərəst mövqe nümayiş etdirdilər.

Azərbaycanın haqq işini müdafiə etmək əvəzinə bizim gözümüzdə "tük axtarmağa" başladılar, "söz azadlığı", "demokratiya" ilə bağlı "nöqsanlar tapdılar", əleyhimizə qətnamələr çıxardılar.

Hətta bu gün də eyni ədalətsiz mövqedədirlər...

Bizə çatanda beynəlxalq hüquq da gücsüz oldu.

Ərazilərimizin Ermənistan tərəfindən işğalını görmədilər:

- Bir milyondan çox azərbaycanlının qaçqına və məcburi köçkünə çevrilməsinə heç bir reaksiya vermədilər;
- İşğal olunmuş yaşayış məntəqələrinin yandırılıb dağıdılmasına, "ruhlar şəhəri"nə çevrilməsinə əhəmiyyət vermədilər;
- Tarixi, mədəni, dini abidələrimizin dağıdılmasına, təhqir edilməsinə göz yumdular;
- Yüz minlərlə insanın yaşamaq, seçdiyi məkanda ömür sürmək, yerli seçkilərdə iştirak etmək, sevdiyi peşəsi ilə məşğul olmaq hüququnun pozulduğuna əhəmiyyət vermədilər;
- Azərbaycan vətəndaşlarının kütləvi şəkildə mülkiyyət hüququnun pozulmasına da göz yumdular.

❖ ❖ ❖

Avropanın daha bir qurumu saxta, riyakar, dişsiz fəaliyyəti ilə "məşhurlaşdı".

Söhbət Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə məxsusi şəkildə yaradılan ATƏT-in Minsk qrupundan gedir.

Münaqişənin sülh yolu ilə həlli məqsədilə 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradıldı.

Bununla da BMT bu məsələni ATƏT-in himayəsinə vermiş oldu.

ATƏT də Minsk qrupu və Minsk konfransı yaratdı.

Əvvəlcə iki həmsədr dövlətin olması nəzərdə tutulurdu.

Lakin ABŞ və Fransa arasında seçimdə mübahisə yarandığına görə üç dövlətin həmsədrliyi təsdiq edildi:

Rusiya, ABŞ və Fransa.

Bununla da görüşlər, uzun-uzadı danışıqlar, mənasız, turist səfərlərinə bənzər gediş-gəlişlər başlandı.

Heç nəyə yaramayan, tərəflərin hər ikisini qane etməyən təkliflər də verildi:

- Əvvəlcə problemin "paket həlli";
- Sonra "mərhələli həll" variantı;
- Daha sonra "ümumi dövlət" anlayışı meydana gəldi.

Ermənistan həmsədr dövlətlər tərəfindən müdafiə olunduğundan ipə-sapa yatmır, Qarabağa "müstəqil respublika" statusunu almağa çalışırdı.

Azərbaycan isə bununla qəti razılaşmırdı!

Çünki Ermənistanın məqsədi "müstəqil respublika" statusundan sonra "DQR"i özünə birləşdirmək və bununla da işğalı əbədiləşdirmək idi!

Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin prinsipial, qətiyyətli və dəyişməz mövqələri sayəsində Ermənistanın müdafiəçiləri və havadarlarının ATƏT-in "sülh danışıqları" yolu ilə Azərbaycandan ərazi qopararaq Ermənistana bağışlamaq niyyəti baş tutmadı.

44 günlük Zəfər müharibəsindən sonra isə Müzəffər Ali Baş Komandan İlham Əliyevin diplomatik fəaliyyəti sayəsində üzərinə qoyulan vəzifənin öhdəsindən gələ bilməyən bu fərsiz qurum tarixin qaranlıq arxivinə verildi!

Bu münasibətlə mətbuata verilən məlumatda deyilirdi:

"Azərbaycanın və Ermənistanın ATƏT-in Finlandiya sədrliyinə birgə müraciətindən sonra təşkilat Nazirlər Şurasının 2025-ci il sentyabrın 1-də qəbul edilmiş qərarına uyğun olaraq, 2025-ci il noyabrın 30-da saat 23:59-da Minsk prosesi və onun əlaqədar strukturlarının bağlanmasını yekunlaşdırdı.

Bu barədə ATƏT-in bəyanatında bildirilib. Qeyd edilib ki, bütün zəruri inzibati prosedurların başa çatdırılması bağlanma prosesinin başa çatması deməkdir. Bu proses 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin və Ermənistanın baş naziri Nikol Paşinyanın imzaladığı və ABŞ Prezidenti Donald Trampın da şahidi olduğu tarixi Birgə Bəyannamənin ardınca ATƏT-in bütün 57 iştirakçı dövlətinin 1 sentyabr tarixli konsensus qərarını həyata keçirdi".

Nə BMT, nə ATƏT, nə beynəlxalq təşkilatlar, nə də beynəlxalq hüquq ədalətin bərpasında kara gəldi!

Tanrı da daim "səndən hərəkət, məndən bərəkət" prinsipi ilə kömək göstərir.

Azərbaycanın mövqeyi işğalın ilk günlərindən qəti və aydın idi!

Həm Ulu Öndər Heydər Əliyev, həm də möhtərəm Prezident İlham Əliyev dəfələrlə açıq şəkildə bəyan etmişdilər ki, Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcək və öz ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir!

Üstəlik, bu qətiyyətli mövqeni təkcə danışıqlar masasında ortaya qoyaraq müdafiə etmirdilər.

Ölkə iqtisadiyyatını dayanmadan gücləndirir, yeni ordu quruculuğu ilə ciddi şəkildə məşğul olurdular.

Ömür Ulu Öndər Heydər Əliyevə vəfa etmədi, cənab İlham Əliyev isə torpaqların işğaldan azad ediləcəyi və məcburi köçkünləri doğma torpaqlarına qaytaracağı barədə vədinə sonadək sadiq qaldı.

İlk dəfə 2016-cı ildə baş verən dördgünlük Aprel döyüşlərində düşmənə ciddi qulaqburması verildi.

Lakin havadarlarına arxalanan düşmən bundan lazımi nəticə çıxarmadı…

Münaqişənin birdəfəlik və əbədi həlli üçün hərbi variant qaçılmaz oldu!

Düşmənin Tovuz bölgəsində təxribatçı əməllərinə son qoymaqdan ötrü "dəmir yumruq" işə düşdü!

Bu barədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin müharibədən sonrakı dövrlərdə çıxışlarından bəzi məqamlara diqqət çəkmək istəyirik:

"İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı imkan verdi ki, Azərbaycan nəinki beynəlxalq hüququ bərpa etdi, bütün dünyaya nümayiş etdirdi ki, ədalətsizlik əbədi davam edə bilməz".

Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə 44 gün ərzində Azərbaycan Ordusu əsl möcüzələr yaratdı:

"44 gün ərzində şanlı Ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur".

Xalq öz sevimli rəhbərinin arxasında sonadək əzmlə dayandı!

Hərbi səfərbərlik xidməti qarşısında gecə-gündüz növbə gözləyən Azərbaycan gənci orduda döyüşmək istəyini nümayiş etdirirdi.

Əsgər və zabitlərimiz kütləvi qəhrəmanlıqlar göstərir, hər gün bir neçə yaşayış məntəqəsini işğaldan azad edirdilər.

Müzəffər Ali Baş Komandan İlham Əliyev sistemli şəkildə televiziya vasitəsilə xalqa müraciət edərək azad olunan kənd, şəhər və qəsəbələr barədə müjdələr verir, işğaldan qurtarılan yerlərdə üçrəngli bayrağımızı qürurla ucaldırdı!

Dünənədək lovğalıqla özünü "məğlubedilməz millət", ordularını "məğlubedilməz ordu" adlandıran haylar "dəmir yumruğ"un qarşısında davam gətirməyərək silah-sursatlarını ataraq arxalarına baxmadan qaçırdılar.

Azərbaycan Ordusu torpaqları işğaldan azad etməklə bərabər ədaləti, beynəlxalq hüququ da təmin edirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qürurla söylədiyi kimi:

"Biz göstərdik ki, güclü iradə, peşəkarlıq, vətənpərvərlik, milli ruhda tərbiyə olunan gənc nəsil olarsa, heç bir qüvvə o xalqın qabağında dura bilməz - nə 6, 7, 8, 9, 10 müdafiə xətti, nə Ermənistan ordusunun coğrafi üstünlüyü, - çünki bütün təpələrdə onlar yerləşmişdi, - nə böyük dövlətlər, nə də Ermənistanı silahlandıran və onlara mənəvi və fiziki yardım göstərən dövlətlər. Bax, bütün bu amillər bir yerdə olanda, o xalqın qabağında heç kim dura bilməz".

Otuzillik işğala hərbi yolla son qoymaq üçün Azərbaycana cəmi 44 gün bəs etdi!

- 44 şərəfli döyüş günü!
- 44 qələbə və xoş müjdələr günü!
- 44 kütləvi qəhrəmanlıqlar günü!
- 44 ədalətin bərpası günü!

Müzəffər Ali Baş Komandan İlham Əliyev həmin 44 gündə "dəmir yumruğ"u ilə düşmənin belini qıraraq başını əzdi!

- Müharibələr tarixində yeni bir səhifə açdı, müasir müharibə modeli yaratdı.
- Ağdam, Laçın və Kəlbəcər rayonlarını bir güllə belə atmadan aldı.
- Alınmaz qala şəhəri Şuşanı yalın əllə, əsgər xəncəri və "lopatkası" vasitəsilə əlbəyaxa döyüşlərdə geri qaytardı.
- İkiəsrlik Qarabağ müharibəsinə əbədi yekun vurdu!
- Beynəlxalq qurum və təşkilatların, güclü dövlətlərin könüllü şəkildə etmədiklərini "dəmir yumruq"la həll etdi!

Təkcə beynəlxalq hüququ, ədaləti deyil, İlahi ədaləti də təmin etmiş oldu!

Ədaləti unudanlara, onu ayaq altına atanlara özünəməxsus formada dərs verdi!

Azərbaycan xalqına və onun dostlarına isə əsl ədalətin Zəfər təntənəsini yaşatdı.

Bəxtiyar SADIQOV

Azərbaycanın müasir siyasi tarixində elə hadisələr var ki, onların əhəmiyyəti zaman keçdikcə daha aydın görünür. 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransının keçirilməsi də belə tarixi hadisələrdəndir. Həmin gün Naxçıvanda qəbul edilən qərar yalnız yeni siyasi təşkilatın yaradılması deyildi. Bu, böhran və qeyri-müəyyənlik şəraitində ölkənin gələcəyinə inamın, milli məsuliyyətin və dövlətçilik iradəsinin siyasi ifadəsi idi.



Milli iradənin və dövlətçilik ənənələrinin daşıyıcısı

O dövrdə Azərbaycan müstəqilliyini yenicə bərpa etmişdi. Lakin dövlətçiliyin qorunması, siyasi sabitliyin təmin olunması, idarəçilikdəki pərakəndəliyin aradan qaldırılması və cəmiyyətin vahid məqsəd ətrafında birləşdirilməsi ciddi zərurətə çevrilmişdi. Belə bir şəraitdə Azərbaycanın taleyini düşünən ziyalıların yeni siyasi təşkilatın yaradılması təşəbbüsü ilə çıxış etməsi təsadüfi deyildi. Bu seçim xalqın böyük etimad bəslədiyi Ulu Öndər Heydər Əliyevin şəxsiyyəti ətrafında gerçəkləşdi. Beləliklə, YAP-ın yaranması ayrı-ayrı şəxslərin və ya siyasi qrupun maraqlarından doğan təşəbbüs deyil, cəmiyyətin obyektiv ehtiyacından irəli gələn tarixi zərurət idi.

Partiyanın yaradılmasına aparan yolun mühüm mərhələsi 1992-ci il oktyabrın 16-da ölkənin bir qrup tanınmış ziyalısının Heydər Əliyevə ünvanladığı müraciət oldu. Azərbaycanın siyasi tarixində mühüm əhəmiyyət kəsb edən bu müraciət ölkədəki vəziyyətdən narahat olan geniş ictimai təbəqələrin arzu və gözləntilərini ifadə edirdi. Ulu Öndərin buna cavabında yeni partiyanın yaradılması müstəqil Azərbaycanın gələcək həyatının əsasını təşkil edən demokratiya və siyasi plüralizm şəraitində obyektiv zərurət kimi dəyərləndirilirdi. Bu yanaşma YAP-ın siyasi mahiyyətini və məqsədini aydın göstərirdi. Siyasi mübarizə qanun çərçivəsində aparılmalı, fərqli mövqelərə hörmət edilməli, əsas hədəf isə milli maraqlara xidmət olmalı idi.

1992-ci il noyabrın 21-də Naxçıvanda Azərbaycanın bütün bölgələrini təmsil edən 550 nəfərlik təşəbbüs qrupunun iştirakı ilə keçirilən təsis konfransında partiyanın yaradılması haqqında qərar qəbul edildi, təşkilatın Nizamnaməsi və Proqramı təsdiqləndi, Heydər Əliyev yekdilliklə partiya sədri seçildi. YAP müxalifət partiyası kimi fəaliyyətə başlasa da, onun mövqeyi qarşıdurma üzərində qurulmamışdı. Partiya konstruktiv siyasi mübarizəni, qanunçuluğu və ölkənin gələcəyi naminə məsuliyyətli yanaşmanı əsas götürürdü. Heydər Əliyevin rəhbərliyi ilə YAP qısa müddətdə cəmiyyətin aparıcı siyasi qüvvəsinə çevrildi. Ulu Öndərin "YAP dünənin, bu günün və gələcəyin partiyasıdır" fikri təşkilatın tarixi missiyasını ifadə edən prinsipə çevrildi. Partiyanın gücü yalnız üzvlərinin sayı ilə deyil, cəmiyyətin inkişafına verdiyi töhfə, dövrün çağırışlarına cavab vermək bacarığı və gələcəyə dair aydın baxışı ilə ölçülürdü. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, qələbələrimizin başlanğıcı da məhz YAP-ın təsis qurultayına gedib çıxır.



2005-ci il martın 26-da keçirilən III Qurultayda Prezident İlham Əliyevin YAP Sədri seçilməsi partiyanın inkişafında yeni mərhələnin başlanğıcı oldu. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun müasir dövrün tələblərinə uyğun davam etdirilməsi əsas istiqamətə çevrildi.

Prezident İlham Əliyev partiyanın VIII Qurultayındakı çıxışında Ulu Öndərin siyasi xəttinin dəyişməz qaldığını vurğuladı. Dövlət başçısı ölkənin son illərdə keçdiyi uğurlu və şərəfli yolda partiya fəallarının böyük payı və töhfəsi olduğunu qeyd etdi. Prezidentin partiyanı Azərbaycanın və Cənubi Qafqazın ən böyük siyasi qüvvəsi kimi səciyyələndirməsi onun ictimai-siyasi çəkisinin göstəricisidir.

YAP-ın siyasi dəyərlər sistemində vətənə sədaqət, ümummilli maraqlara bağlılıq, müstəqillik, dövlətçilik və qanunun aliliyi xüsusi yer tutur. Partiyanın Proqramında əksini tapan 10 strateji prinsip - Heydər Əliyev yolu, müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, konstruktiv əməkdaşlıq və dialoq, sosial ədalət və insan amili, multikultural cəmiyyət və demokratik ənənələrin inkişafı - təşkilatın ideoloji istiqamətini sistemli şəkildə ifadə edir. 2021-ci il martın 5-də keçirilən YAP-ın VII qurultayında yeni Nizamnamənin qəbul edilməsi, İdarə Heyətinin 40, Təftiş Komissiyasının 13 nəfərdən ibarət tərkibinin təsdiqlənməsi və Veteranlar Şurasının yaradılması partiyanın təşkilati yenilənməsində mühüm addımlar oldu. Həmin gün Mehriban xanım Əliyevanın partiya Sədrinin birinci müavini təyin edilməsi də ictimai-siyasi fəaliyyətdə qadınların roluna verilən önəmin və yüksək etimadın ifadəsi idi. Sonradan təsdiq edilən Proqramda partiyadaxili münasibətlərin meyarları - peşəkarlıq, işgüzarlıq, şəxsi inkişaf, sağlam rəqabət, etik davranış, innovativlik, elmlilik və müasirlik müəyyənləşdirildi. Sənəddə yer alan 11 strateji hədəf isə iqtisadi inkişafdan sosial təminata, milli-mənəvi dəyərlərin qorunmasından ordu quruculuğuna, xarici siyasətdən işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışa qədər geniş sahələri əhatə edir.

Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam bərpası YAP-ın fəaliyyətində yeni tarixi mərhələ açmışdır. Prezident İlham Əliyev qurultayın ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam təmin edildikdən sonra keçirildiyini xüsusi vurğuladı. İşğaldan azad edilmiş ərazilərin bərpası, Böyük qayıdışın təmin olunması və həmin torpaqlarda dayanıqlı həyatın qurulması isə ümummilli əhəmiyyət daşıyır. Bu baxımdan konstruktiv siyasi dialoqun təşviqi xüsusi əhəmiyyət kəsb edir. Prezidentin "Ümummilli məsələlərdə heç bir fərqli fikir ola bilməz" mövqeyi siyasi rəqabətin milli maraqlar çərçivəsində aparılmasının vacibliyini ifadə edir. İqtidar-müxalifət münasibətlərində sağlam əməkdaşlıq, fərqli baxışların qanun və qarşılıqlı hörmət əsasında ifadəsi demokratik siyasi mədəniyyətin inkişafına xidmət edir.

Seçkilərin nəticələri YAP-ın cəmiyyətdəki mövqeyini və seçicilərin partiyaya etimadını göstərən amillərdəndir. 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində partiyanın namizədi İlham Əliyevin 92,12 faiz səs qazanması, həmin il sentyabrın 1-də keçirilən parlament seçkilərində YAP-ın 68 mandat əldə etməsi, 2025-ci il yanvarın 29-da keçirilən bələdiyyə seçkilərində partiyadan 5855 nəfərin üzv seçilməsi bu etimadın siyasi göstəriciləridir. 2026-cı il oktyabrın 2-də keçirilən VIII Qurultay bu baxımdan növbəti mühüm mərhələ oldu. Prezident İlham Əliyevin proqram xarakterli çıxışı yeni ictimai-siyasi və geosiyasi şəraitdə partiyanın qarşısında duran vəzifələri və strateji hədəfləri müəyyənləşdirdi. Qurultayda Nizamnaməyə dəyişikliklər təsdiqləndi, İdarə Heyətinin və Təftiş Komissiyasının say tərkibləri müəyyən edildi və üzvləri seçildi.

Yeni Azərbaycan Partiyasının tarixi missiyasına nəzər saldıqda onun yaranma səbəbləri ilə müasir Azərbaycanın nailiyyətləri arasında aydın bağlılıq görürük. 1992-ci ilin mürəkkəb şəraitində milli məsuliyyət hissindən doğan təşəbbüs zamanın sınağından keçərək ölkənin aparıcı siyasi təşkilatına çevrilmişdir. Bu yolun başlanğıcında Heydər Əliyevin müdrikliyi, qətiyyəti və xalqla birliyi dayanırdısa, bu gün həmin siyasi xətt Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixi şəraitdə davam etdirilir. Partiyanın gələcək nüfuzu keçmiş xidmətləri ilə yanaşı, cəmiyyətin etimadını əməli fəaliyyətlə doğrultmaq, dəyişən çağırışlara çevik cavab vermək və milli məqsədlərə xidmət etmək bacarığından asılı olacaq. YAP-ın keçdiyi yol təsdiq edir ki, onun əsas dayağı xalqın iradəsi, ideoloji təməli dövlətçilik, strateji istiqaməti isə müstəqil Azərbaycanın davamlı inkişafıdır. Bu mənada Yeni Azərbaycan Partiyası dünənin tarixi hadisəsi, bu günün aparıcı siyasi qüvvəsi olmaqla yanaşı, sabahın məsuliyyətini daşıyan və milli birliyə xidmət edən siyasi institutdur.

Natiq QULUZADƏ,
YAP Zəngilan rayon təşkilatının sədri

Paris anti-Azərbaycan ritorikasına yox, öz problemlərinə köklənməlidir

Beynəlxalq siyasətdə dövlətin dəyişən reallıqları obyektiv qiymətləndirmək bacarığı onun diplomatiyasının səmərəliliyini müəyyən edən başlıca göstəricilərdən biridir. Lakin Fransa Azərbaycana münasibətdə hələ də Qarabağ münaqişəsi dövründə formalaşmış siyasi mövqeyindən çıxış etməkdə davam edir. Fransanın xarici ticarət və iqtisadi cəlbedicilik məsələləri üzrə səlahiyyətli naziri Nikola Forissyenin, eləcə də bu ölkənin Xarici İşlər Nazirliyinin son bəyanatları Parisin Bakıya qarşı konfrontasiya ritorikasının yenidən gücləndiyini göstərir.

Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA "Azərbaycan" qəzetinə açıqlamasında dedi ki, 2023-cü ilin sentyabrında həyata keçirilmiş antiterror tədbirlərini Fransanın beynəlxalq hüququn pozulması kimi təqdim etmək cəhdləri haqlı sual doğurur: "Nə üçün BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan Fransa onilliklər ərzində Azərbaycan ərazilərinin işğalı məsələsində eyni prinsipiallığı nümayiş etdirməyib? 1993-cü ildə BMT Təhlükəsizlik Şurası işğalçı qüvvələrin Azərbaycan ərazilərindən çıxarılmasını nəzərdə tutan dörd qətnamə qəbul edib. Beynəlxalq mexanizmlər bu münaqişənin həllini təmin edə bilmədiyindən Azərbaycan öz ərazi bütövlüyünü və konstitusiya quruluşunu müstəqil şəkildə bərpa etmək məcburiyyətində qalıb".



Deputatın sözlərinə görə, Fransa diplomatiyasının ikili standartlar mövqeyindən çıxış etməsi özünü humanitar sahədə də büruzə verir: "Qarabağın erməni əhalisinin taleyinə diqqət yönəldən Paris doğma yurdlarını tərk etmək məcburiyyətində qalmış yüz minlərlə azərbaycanlının hüquqlarını, itkin düşmüş şəxslərin problemlərini, mina təhlükəsini, Azərbaycanın mədəni və dini irsinin məruz qaldığı dağıntıların miqyasını çox vaxt öz siyasi gündəliyindən kənarda saxlayır. Halbuki humanitar prinsiplər zərərçəkmiş insanların milli mənsubiyyətindən və ayrı-ayrı dövlətlərin siyasi seçimlərindən asılı olmamalıdır".

S.Fətəliyeva qeyd etdi ki, Nikola Forissyenin bu günlərdə erməni məhbusların azadlığa buraxılmasının Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması üçün ilkin şərt olması barədə bəyanatı xüsusi diqqət çəkib. Onun fikrincə, əslində, Paris Bakı ilə İrəvan arasında razılaşdırılmış sülh gündəliyinə öz tələblərini daxil etməyə çalışır. Azərbaycan Xarici İşlər Nazirliyinin bəyanatında vurğulandığı kimi, bu barələrində məhkəmə icraatı aparılan şəxslər arasında hərbi cinayətlər, insanlıq əleyhinə cinayətlər və terrorçuluq da daxil olmaqla, ağır cinayətlər törətməkdə ittiham olunan və məhkum edilmiş şəxslər var. Onların cinayət işlərinə milli qanunvericilik çərçivəsində baxılıb. Diqqətçəkən məqam ondan ibarətdir ki, noyabrın 18-də Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan özü belə bir şərtin irəli sürülməsinin sülh sazişinin imzalanmasını gecikdirə biləcəyini etiraf edib. Beləliklə, ayrı-ayrı məsələlərdə Fransanın mövqeyi hətta rəsmi İrəvanın mövqeyindən daha az konstruktiv görünür. "Son aylarda Parisin anti-Azərbaycan ritorikasının intensivləşməsi sistemli xarakter alır. Sentyabr ayında Fransanın Xarici İşlər Nazirliyi Azərbaycanın məhkəmə sistemi ilə bağlı ittihamlar irəli sürüb, oktyabrda isə bu ölkənin xarici işlər naziri Jan-Noel Barro Fransanın dənizaşırı ərazilərində baş verən hadisələr kontekstində Bakıya qarşı yenidən iddialar səsləndirib. Noyabr ayındakı bəyanatlar həmin siyasi xəttin davamıdır. Bütün bunlar ikitərəfli münasibətlərdə müəyyən müsbət siqnalların müşahidə olunmasına, o cümlədən sentyabr ayında BMT Baş Assambleyası çərçivəsində iki ölkənin xarici işlər nazirlərinin görüşünə baxmayaraq baş verir", - deyə deputat əlavə edib.

O dedi ki, Parisin bu mövqeyinin səbəblərini daha geniş geosiyasi kontekstdə axtarmaq lazımdır. Qarabağ münaqişəsinə son qoyulması, ATƏT-in Minsk qrupunun fəaliyyətinin dayandırılması, Bakı ilə İrəvan arasında birbaşa dialoqa keçid Fransanın regional proseslərə təsir imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırıb. Belə şəraitdə Parisin tərəflərdən birini dəstəkləməklə Cənubi Qafqazda öz siyasi mövcudluğunu qoruyub saxlamaq cəhdi regional sabitliyin obyektiv maraqları ilə ziddiyyət təşkil edə bilər.

S.Fətəliyevanın fikrincə, bütün bunlarla yanaşı, daxili siyasi amillərin təsirini də istisna etmək olmaz: "Sosial-iqtisadi çətinliklər, kütləvi etirazlar və ictimai etimad böhranı fonunda Fransa rəhbərliyi beynəlxalq siyasətdə öz varlığını nümayiş etdirməkdə maraqlıdır. Lakin daxili problemləri xarici siyasi fəallıq hesabına kompensasiya etmək cəhdlərinin Fransanın beynəlxalq nüfuzunu gücləndirəcəyi inandırıcı görünmür".

Deputat qeyd etdi ki, Azərbaycan Avropa dövlətləri ilə əməkdaşlığını ardıcıl şəkildə genişləndirir, bu, qitənin enerji təhlükəsizliyinin təmin olunmasında və yeni beynəlxalq nəqliyyat marşrutlarının formalaşdırılmasında öz rolunu möhkəmləndirir. Belə bir şəraitdə Parisin qarşıdurma siyasəti Azərbaycanın imkanlarını məhdudlaşdırmaqdan daha çox Fransanın özünün Cənubi Qafqazdakı perspektivlərini daraldır. Fransa rəhbərliyi anlamalıdır ki, Cənubi Qafqaz artıq xarici aktorların həll olunmamış münaqişələrdən təsir vasitəsi kimi istifadə edərək siyasi gündəliyi müəyyənləşdirə bildikləri məkan deyil. "Bu gün regionda suverenliyə, ərazi bütövlüyünün qarşılıqlı tanınmasına və birbaşa dövlətlərarası dialoqa əsaslanan yeni münasibətlər modeli formalaşır. Əgər Fransa həqiqətən Cənubi Qafqazda davamlı sülhün bərqərar olmasında maraqlıdırsa, ədalətə seçici yanaşma siyasətindən imtina etməlidir. Regionda sülh Parisin geosiyasi ambisiyalarının reallaşdırılması vasitəsi deyil, özlüyündə bir dəyər olmalıdır", - deyə o vurğulayıb.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Çoxvektorlu və strateji tərəfdaşlıq diplomatiyası

Azərbaycanın dünyanın aparıcı güc mərkəzləri ilə qurduğu bərabərhüquqlu əməkdaşlıq modeli ölkəmizin qlobal nüfuzunun və beynəlxalq etimadın bariz göstəricisidir

Dünya nizamının yenidən şəkilləndiyi həssas dönəmdə hər bir ölkənin xarici siyasət strategiyasının uğuru qlobal proseslərin axarını düzgün qiymətləndirmək və milli maraqları yeni dünya reallıqları ilə məharətlə uzlaşdırmaq qabiliyyəti ilə ölçülür. Məhz bu meyarlar prizmasından yanaşdıqda Azərbaycanın son illərdə beynəlxalq münasibətlər sistemində tutduğu mövqe və nümayiş etdirdiyi diplomatik çeviklik xüsusi diqqət çəkir.

Prezident İlham Əliyevin müəyyənləşdirdiyi və qətiyyətlə həyata keçirdiyi müstəqil, çoxvektorlu xarici siyasət strategiyası Azərbaycanı beynəlxalq arenada qlobal gündəliyin formalaşmasına töhfə verən orta güc statuslu ölkə kimi tanıdıb. Bu gün rəsmi Bakının dünyanın aparıcı siyasi və iqtisadi mərkəzləri - ABŞ, Çin, Böyük Britaniya, Almaniya və bütövlükdə Avropa İttifaqı məkanı ilə qurduğu strateji tərəfdaşlıq münasibətləri ölkəmizin artan diplomatik çəkisinin və etibarlı tərəfdaş imicinin bariz təzahürüdür.

Son dövrlərdə ölkəmizin xarici siyasət gündəliyində diqqətçəkən mühüm tendensiya dünyanın fərqli güc mərkəzləri ilə əməkdaşlıq formatlarının rəsmiləşdirilməsidir. Bunun parlaq nümunələrindən biri 2026-cı il fevralın 10-da Bakıda Prezident İlham Əliyev və ABŞ-nin vitse-prezidenti Ceyms Devid Vens tərəfindən Strateji Tərəfdaşlıq Xartiyasının imzalanması oldu. Bu tarixi sənəd Vaşinqton-Bakı münasibətlərini yeni müstəviyə çıxarmaqla yanaşı, ikitərəfli layihələr, Orta dəhlizin nəqliyyat-logistika imkanlarının genişləndirilməsi, regional bağlantılar, eləcə də TRIPP layihəsi və Azərbaycan-Ermənistan normallaşma prosesi kimi həyati əhəmiyyətli istiqamətlərdə konkret fəaliyyət mexanizmlərini müəyyən etdi.

Qlobal güc mərkəzləri ilə uğurlu diplomatiyanın ən dinamik və məhsuldar istiqamətlərindən biri isə Avropa qitəsi ilə münasibətlərdir. Bu baxımdan 2026-cı il noyabrın 12-də Dublin şəhərində Prezident İlham Əliyev ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem arasında keçirilən görüşdə "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin mübadiləsi xüsusi əhəmiyyət daşıyır. Hər iki ölkə arasında 30 ildən artıqdır ki, enerji sektorunda davam edən və Böyük Britaniyanı Azərbaycanda Avropanın ən böyük investoruna çevirən uğurlu əməkdaşlıq bu sənədlə rəsmi olaraq yeni mərhələyə qədəm qoydu. Bəyannamə ənənəvi tərəfdaşlıq sahələri ilə yanaşı, bərpaolunan enerji, yüksək texnologiyalar, süni intellekt və ölkəmizin müdafiə imkanlarının qorunması və daha da gücləndirilməsi kimi strateji hədəfləri əhatə edir. Son aylarda Britaniyadan Azərbaycana həyata keçirilən yüksəksəviyyəli rəsmi səfərlər də təsdiqləyir ki, London-Bakı tərəfdaşlığı təkcə keçmişin uğurlarına deyil, gələcəyin texnoloji və təhlükəsizlik çağırışlarına hesablanıb.

Avropa məkanında strateji tərəfdaşlıq şəbəkəsinin genişlənməsi təkcə Londonla məhdudlaşmır və qitənin aparıcı iqtisadi lokomotivi olan Almaniya ilə münasibətlərdə də özünü qabarıq göstərir. 2026-cı ilin iyul ayında dövlətimizin başçısının Almaniyaya rəsmi səfəri zamanı imzalanmış "Azərbaycan Respublikası və Almaniya Federativ Respublikası arasında ikitərəfli tərəfdaşlıq üçün strateji gündəliyə dair Birgə Bəyannamə" və Azərbaycan-Almaniya Biznes Şurasının yaradılmasına dair sənəd iki ölkə arasındakı əlaqələrə güclü təkan verib. Noyabrın 17-də Bakıda Almaniyanın xarici işlər naziri Yohan David Vadefulun başçılıq etdiyi nümayəndə heyətinin qəbulu zamanı vurğulandığı kimi, bu ildən etibarən Azərbaycan qazının Almaniyaya ixracına başlanması ölkəmizin Avropanın enerji təhlükəsizliyindəki əvəzsiz rolunu bir daha sübut etdi. Hazırda Bakı-Berlin dialoqu ənənəvi və alternativ enerji, sərmayələr, nəqliyyat-logistika və Orta dəhliz üzrə əməkdaşlıq kimi geniş spektrli məsələləri əhatə edir.

Azərbaycan bu günədək Avropa İttifaqına üzv olan 10 dövlətlə, ümumilikdə isə 10-dan çox Avropa ölkəsi ilə strateji tərəfdaşlıq haqqında rəsmi bəyannamə və sazişlər imzalayıb. Prezident İlham Əliyevin Dublin Sammiti çərçivəsində Ukrayna Prezidenti Volodimir Zelenski, Litva Prezidenti Gitanas Nauseda, Moldova Prezidenti Maya Sandu, Bolqarıstanın Baş naziri Rumen Radev, Yunanıstanın Baş naziri Kiriakos Miçotakis, Çexiyanın Baş naziri Andrey Babiş, eləcə də Rumıniya və Avropa İttifaqının ali rəhbərliyi ilə apardığı intensiv danışıqlar rəsmi Bakının qitənin siyasi və iqtisadi gələcəyi ilə bağlı strateji müzakirələrin ayrılmaz iştirakçısına çevrildiyini göstərir. Bu görüşlərdə qaz təchizatı və yeni enerji bağlantılarından tutmuş kənd təsərrüfatı, investisiya layihələri və regional sülh gündəliyinə qədər geniş mövzuların müzakirəsi sübut edir ki, Avropa ölkələri Azərbaycanı etibarlı tərəfdaş kimi qəbul edirlər.

Ölkəmiz Şərqin iqtisadi və siyasi nəhəngi olan Çin Xalq Respublikası ilə də hərtərəfli strateji tərəfdaşlıq münasibətlərini uğurla inkişaf etdirir. İki ölkə arasında qəbul edilmiş müvafiq bəyannamə və formalaşmış strateji dialoq mexanizmi Bakının Avrasiya məkanında Şərqlə Qərbi birləşdirən əsas körpü rolunu daha da möhkəmləndirib. Eyni zamanda Mərkəzi Asiya dövlətləri, o cümlədən Özbəkistanla strateji tərəfdaşlıq əlaqələrinin dərinləşdirilməsi və Qırğızıstanla əbədi dostluq münasibətlərinə dair müqavilənin imzalanması Azərbaycanın vahid geosiyasi və iqtisadi məkanda inteqrasiya təşəbbüslərinin müəllifi olduğunu təsdiqləyir. Beləliklə, Şərq-Qərb oxunda formalaşan bu bərabərhüquqlu tərəfdaşlıq modeli Azərbaycanı qlobal təchizat zəncirlərinin və geoiqtisadi marşrutların əvəzolunmaz mərkəzinə çevirib.

Önəmli məqam odur ki, Azərbaycanın beynəlxalq sistemdə artan çəkisi təkcə ikitərəfli və regional formatlarla məhdudlaşmır, eyni zamanda qlobal humanitar, iqlim və mədəniyyətlərarası dialoq platformalarında da özünü aydın büruzə verir. Ölkəmizin mötəbər beynəlxalq tədbirlərə və qlobal forumlara yüksək səviyyədə evsahibliyi rəsmi Bakının bəşəriyyəti narahat edən aktual problemlərin həllində təşəbbüskar tərəf kimi çıxış etdiyini ortaya qoyur. Bu gün Azərbaycan həm ənənəvi enerji ehtiyatlarının etibarlı ixracatçısı, həm də "yaşıl enerji" keçidinin regional lideri kimi çıxış edərək Avropa İttifaqı və digər tərəfdaşlarla enerji dialoqunu yeni məzmunla zənginləşdirir. Eyni zamanda Cənubi Qafqazda yeni geosiyasi reallıqların yaradılması, sülh gündəliyinin təşviqi və regional kommunikasiyaların açılması istiqamətində atılan ardıcıl addımlar xarici tərəfdaşların Azərbaycana olan siyasi etimadını daha da möhkəmləndirir.

Sözsüz ki, bütün bu diplomatik nailiyyətlərin arxasında dayanan əsas amil Prezident İlham Əliyevin nümayiş etdirdiyi prinsipial mövqe, uzaqgörən liderlik və milli maraqlara söykənən siyasətdir. Heç bir geosiyasi blokun alətinə çevrilmədən, bütün güc mərkəzləri ilə bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmaq yüksək diplomatik məharət tələb edir. Azərbaycan məhz bu praqmatik və müstəqil siyasət kursu sayəsində həm milli təhlükəsizliyini və suverenliyini etibarlı şəkildə qoruyur, həm də beynəlxalq miqyasda söz sahibi olan aparıcı dövlət statusunu möhkəmləndirir.

İsmayıl QOCAYEV,
"Azərbaycan"

Elm xadimləri

Şərəfli alim və ziyalı ömrü

Sevda Məmmədəliyeva daşıdığı məşhur soyadın kölgəsində qalmayıb

İnsanın mənəvi dünyasını formalaşdıran amillər arasında doğulduğu və yaşadığı yer qədər ailəsindən, nəslindən, mənsub olduğu xalqın tarixindən gələn dəyərlər də mühüm rol oynayır. Sevda xanım Məmmədəliyevanın həyat və fəaliyyətinə nəzər salarkən bu məqamı xüsusi qeyd etmək istəyirəm. İnsan dünyaya bir məkanda gəlir, amma bəzən onun mənəvi kökləri başqa bir məkanda, özünün heç vaxt unutmadığı bir torpaqda dərinləşir.

Sevda xanım Bakıda dünyaya gəlib. Ancaq onun mənəvi dünyasının mühüm bir qatında Ordubadın özünəməxsus ruhu, bu qədim diyarın elmə, maarifə, sözə və düşüncəyə verdiyi dəyər dayanır. Bu, ilk növbədə akademik Yusif Məmmədəliyevin adıdır. Azərbaycan elminin dünya miqyasında tanınmasına böyük töhfə vermiş bu görkəmli şəxsiyyət bizim milli qürur mənbəyimizdir.

Belə bir dahinin ailəsində dünyaya göz açmış Sevda Məmmədəliyeva 1962-ci ildə Bakı şəhər 6 saylı orta məktəbi eksternat qaydası ilə və Bakı şəhər 2 saylı Uşaq Musiqi Məktəbini bitirdikdən sonra indiki Bakı Dövlət Universitetinin Kimya fakültəsinə daxil olmuş və 1967-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. Elmi fəaliyyətə Azərbaycan Elmlər Akademiyası sistemində başlayan Sevda Məmmədəliyeva 1972-ci ildə "Benzolun və onun törəmələrinin butadien ilə alkenilləşmə reaksiyasının və sintez birləşmələrin bəzi çevirilmələrinin tədqiqatı" mövzusunda namizədlik, 1993-cü ildə "Kimya və ekologiyanın qarşılıqlı təsirinin sosial-fəlsəfi aspektləri" mövzusunda doktorluq dissertasiyaları müdafiə etmiş, 1997-ci ildə professor elmi adına layiq görülmüşdür. 2001-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.



Sevda xanım 1967-1983-cü illərdə Azərbaycan Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında elmi işçi, böyük elmi işçi vəzifələrində çalışmış, 1983-1999-cu illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində dosent, professor, kafedra müdiri işləmişdir. 1999-cu ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə mədəniyyət nazirinin müavini vəzifəsinə təyin olunmuş və 2023-cü ilə kimi bu məsul işdə bir sıra uğurlara imza atmışdır.

Sevda Məmmədəliyevanın həyat yolunda diqqətimi çəkən məqamlardan biri onun elmi maraqlarının, düşüncəsinin zamanla yeni istiqamətlər qazanmasıdır. Kimya təhsili almış, neft-kimya sahəsində elmi mühitdə yetişmiş bir tədqiqatçının sonradan sosial fəlsəfə və kulturologiya sahəsində özünəməxsus elmi mövqe qazanması təsadüfi keçid kimi qiymətləndirilməməlidir. Bu transformasiyanı dünyanı müxtəlif bilik sahələrinin qarşılıqlı əlaqəsində anlamaq cəhdi kimi qavramağın tərəfdarıyam. Elmin bir sahəsində qazanılan təfəkkür vərdişləri başqa bir sahədə də insanın düşüncə üfüqünü genişləndirə bilər. Bu baxımdan Sevda xanımın elmi yolunda mühüm bir ardıcıllıq görürük: hadisələrin mahiyyətinə nüfuz etmək, onlar arasındakı əlaqələri üzə çıxarmaq və əldə olunan biliyin insan həyatındakı mənasını anlamaq.

Sevda Məmmədəliyevanın elmi fəaliyyətinin əsas istiqamətlərindən biri müasir elmdə inteqrasiya proseslərinin fəlsəfi təhlilidir. Onun tədqiqatlarında müxtəlif elm sahələrinin bir-birindən təcrid olunmuş şəkildə inkişaf edə bilməyəcəyi fikri mühüm yer tutur. Bu yanaşma xüsusilə ekologiyanın fəlsəfi-metodoloji əsaslarının araşdırılmasında özünü göstərir. Alimin əsərləri arasında "Kimya və ekologiyanın fəlsəfi-metodoloji nöqteyi-nəzərdən qarşılıqlı təsiri", "Ekoloji problem və onun həlli yolları", "Ekologiya və texnika", "Mədəniyyət, təhsil, ekologiya" kimi mövzuların yer alması təsadüfi deyil. Bu əsərlərin adlarının özündə belə bir elmi maraq görünür: insanın yaratdığı texnologiyalar, təbiətin qanunları, cəmiyyətin inkişafı və mənəvi məsuliyyət arasında hansı münasibətlər mövcuddur?

Bu sətirlərin müəllifinin elmi fəaliyyətində də təbiət, canlı sistemlər və onların davamlılığı ilə bağlı məsələlər mühüm yer tutur. Bitkilərin ətraf mühitin dəyişən şəraitinə uyğunlaşma mexanizmlərini, fotosintetik sistemlərin fəaliyyətini, bioloji müxtəlifliyin qorunmasının elmi əsaslarını araşdırarkən bir həqiqətlə daim qarşılaşırıq: canlı aləmdə heç nə təcrid olunmuş vəziyyətdə mövcud deyildir. Bir sistemdə baş verən dəyişiklik digər sistemlərə də təsir göstərir. Bioloji tədqiqatlarda eksperimental nəticələrlə üzə çıxan bu qarşılıqlı asılılıq sosial fəlsəfədə başqa müstəvidə, insanın təbiətə və cəmiyyətə münasibətində öz əksini tapır.

Sevda xanımın ekologiyaya fəlsəfi yanaşması məhz bu nöqtədə xüsusi maraqla qarşılanır. Ekologiyanı sadəcə ətraf mühitin qorunması ilə bağlı biliklər toplusu kimi anlamaq kifayət etmir. Ekologiya insanın öz varlığı, gələcəyi və digər canlılarla münasibəti haqqında düşünməsinə səbəb olan ciddi bir dünyagörüşü məsələsidir. Təbiəti qorumaq üçün əvvəlcə onun dəyərini anlamaq, bu dəyəri ictimai şüurun və gündəlik davranışın bir hissəsinə çevirmək lazımdır. Sevda Məmmədəliyevanın ekoloji mədəniyyət və etika problemlərinə müraciəti də elmi biliyin bu mənəvi tərəfini ön plana çıxarır.

S.Məmmədəliyevanın elmi fəaliyyətinin digər mühüm istiqaməti mədəniyyət və insan münasibətlərinin, qloballaşma şəraitində milli mədəniyyətin qorunmasının və inkişafının fəlsəfi təhlilidir. "Azərbaycanda mədəniyyət siyasəti", "Qloballaşma dövründə mədəniyyət", "Mədəniyyət və insan" kimi əsərləri bu marağın müxtəlif tərəflərini əks etdirir. Bu mövzuların hər biri böyük bir elmi və ictimai məsuliyyət tələb edir. Çünki mədəniyyət haqqında söz demək, əslində, xalqın yaddaşından, özünü tanımasından, gələcək nəsillərə hansı dəyərləri ötürəcəyindən danışmaqdır. Alim bu istiqamətlərdə əldə etdiyi tədqiqat nəticələrini sosial fəlsəfə və kulturologiya istiqamətləri üzrə təşkil olunan çoxsaylı beynəlxalq və respublika elmi tədbirlərində, forum, simpozium və konfranslarda məruzə etmişdir. Onun elmi yaradıcılığı 130-dan çox əsəri, o cümlədən 12 monoqrafiya və kitabı əhatə edir.

Sevda Məmmədəliyevanın 1999-cu ildən Azərbaycanın mədəniyyət nazirinin müavini kimi fəaliyyətə başlaması onun elmi və ictimai fəaliyyətində məhz bu istiqamətdə yeni bir mərhələnin əsasını qoymuşdur. Bu vəzifədə o, beynəlxalq əlaqələr, qeyri-maddi mədəni irs və xalq sənəti, elm və təhsil, həmçinin muzey siyasətinin inkişafı və bu istiqamətlərdə həyata keçirilən tədbirlərin əlaqələndirilməsinə rəhbərlik etmişdir. Alimin təşəbbüsü və iştirakı ilə mədəniyyət siyasətinin elmi əsaslarının işlənməsinə, milli mədəniyyətin beynəlxalq təcrübə kontekstində öyrənilməsinə xüsusi diqqət yetirilmişdir. Avropa Şurasının "STAGE" layihəsi çərçivəsində Azərbaycanın mədəniyyət siyasətinə dair Milli Məruzənin hazırlanmasında iştirakı bu fəaliyyətin mühüm nəticələrindən biri idi.

Sevda xanımın beynəlxalq fəaliyyətində mədəniyyətlərarası dialoqun inkişafı xüsusi yer tutur. 2008-ci ildə Bakıda keçirilən Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı çərçivəsində irəli sürülən "Bakı Prosesi" təşəbbüsünün formalaşması və inkişafında iştirak etmiş, 2011-2019-cu illərdə keçirilən I-V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumlarının Təşkilat Komitəsinin sədr müavini və "Bakı Prosesi" Beynəlxalq İşçi Qrupunun rəhbəri kimi fəaliyyət göstərmişdir. Avropa Şurasının Mədəniyyət üzrə Rəhbər Komitəsində və onun Bürosunda uzunmüddətli təmsilçiliyi, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının sədr müavini kimi fəaliyyəti ölkəmizin beynəlxalq mədəni əməkdaşlıq əlaqələrinin genişlənməsinə verdiyi töhfələri tamamlayır.

Milli-mədəni irsin qorunması və dünya miqyasında tanıdılması Sevda xanımın fəaliyyətinin vacib istiqamətlərindən biri olmuşdur. UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmiş 17 Azərbaycan irs nümunəsinin (Azərbaycan aşıq sənəti, xalça toxuculuğu sənəti, tar ifaçılıq sənəti, Qarabağ atçılıq oyunu Çovqan, kələğayı incəsənəti və onun simvolizmi, Lahıc misgərlik sənəti, lavaş hazırlanması mədəniyyəti, Novruz bayramı, dolma hazırlanması ənənəsi, kamança ifaçılıq sənəti, Naxçıvanın ənənəvi qrup rəqsləri, Dədə Qorqud irsi və s.) nominasiya sənədlərinin və elmi əsaslandırmalarının hazırlanmasına rəhbərlik etməsi onun bu sahədəki xidmətlərinin əhatəsini göstərir. AMEA-nın müxbir üzvü Sevda Məmmədəliyevanın 2019-cu ildə Bakıda keçirilən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının təşkilində, eləcə də Şəkinin tarixi mərkəzi ilə Xan sarayının Dünya İrs Siyahısına daxil edilməsi prosesində iştirakı da xüsusi qeyd olunmalıdır. 2020-2023-cü illərdə işğaldan azad edilmiş ərazilərdə İşğal və Zəfər muzeyləri komplekslərinin elmi konsepsiyalarının hazırlanmasına rəhbərlik etməsi də tarixi yaddaşımızın qorunması istiqamətində gördüyü işlərin davamı idi.

Sevda xanımın ictimai-siyasi fəaliyyəti də onun bioqrafiyasında ayrıca yer tutur. 1998-ci ildə keçirilmiş prezident seçkilərində Ümummilli Lider Heydər Əliyevin vəkili olması onun ictimai-siyasi proseslərdə iştirakının əhəmiyyətli məqamlarından biridir. Sevda xanımın ictimai fəaliyyətində atasının elmi irsinin yaşadılması da xüsusi yer tutur. Hazırda onun təsisçisi və sədri olduğu Akademik Yusif Məmmədəliyev Fondu bu istiqamətdə fəaliyyət göstərir.

Sevda xanımın həyat yoluna bütövlükdə nəzər saldıqda elm, dövlət idarəçiliyi, beynəlxalq əməkdaşlıq və milli-mədəni irsin qorunması arasında ardıcıl bir əlaqə görürük. O, elmi bilik və təcrübəsini müxtəlif fəaliyyət sahələrində tətbiq etməklə Azərbaycanın mədəni sərvətlərinin beynəlxalq miqyasda tanıdılmasına, mədəniyyətlərarası dialoqun inkişafına və milli yaddaşın yaşadılmasına töhfə vermişdir. Alimin fəaliyyətinin əsas məzmunu da bu istiqamətlərin vahid məqsəd ətrafında birləşməsindədir.

Sevda xanımın həyat yolunda diqqətçəkən başqa bir məqam da elmə, təhsilə və mədəniyyətə xidmətin müxtəlif formalarda davam etməsidir. Universitet auditoriyasında müəllimlik, elmi tədqiqat, monoqrafiyalar, beynəlxalq layihələr, dövlət idarəçiliyində fəaliyyət - bunların hər biri fərqli bacarıq və məsuliyyət tələb edir. Ancaq hamısını birləşdirən əsas xətt insana, biliyə və cəmiyyətin inkişafına xidmət etmək istəyidir.

Bir məsələni xüsusi vurğulamaq istərdik. Yusif Məmmədəliyevin elmi şöhrəti övladı üçün böyük mənəvi sərvət olduğu qədər həm də məsuliyyətdir. Belə bir irsin kölgəsində qalmaq da mümkündür, onun mənasını öz fəaliyyətinlə yenidən açmaq da. Sevda xanımın həyat yolunda ikinci məqamı görürük. O, atasının kimya sahəsində yaratdığı elmi məktəbi təkrarlamağa çalışmadı. Öz elmi maraqlarını seçib, başqa bir istiqamətdə - sosial fəlsəfə, ekologiya və kulturologiya sahələrində araşdırmalar apardı, özünəməxsus, təkrarsız nəticələr əldə etdi. Bununla da ailədən gələn intellektual ənənəni müstəqil elmi mövqeyə çevirə bildi.

Bu, mənəvi və intellektual irsin ən doğru davamlı formalarından biridir. Çünki elmi irsə sədaqətin təməlindəki düşüncə yüksək mədəniyyəti, mənəvi məsuliyyəti, zəhmətə və biliyə ehtiramı qorumaqdır. Yusif Məmmədəliyevin elmi həyatında təbiətin və maddənin qanunlarını dərindən öyrənmək, onları insanın və ölkənin inkişafı naminə tətbiq etmək istəyi vardı. Sevda Məmmədəliyevanın elmi və ictimai fəaliyyətində isə insan, cəmiyyət, mədəniyyət və təbiət arasındakı münasibətlərin fəlsəfi dərki ön plana çıxır.

Sevda Məmmədəliyevanın elmi, ictimai və dövlətçilik fəaliyyətinə verilən yüksək qiymət onun çoxsaylı yerli və beynəlxalq mükafatlarında da öz əksini tapmışdır. Bu təltiflər sırasında Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 2016-cı ildə 3-cü dərəcəli, 2019-cu ildə isə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordenləri ilə təltif olunması xüsusi yer tutur. 2024-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülməsi onun uzunillik xidmətlərinə verilən növbəti yüksək qiymətdir.

Bu gün dünyada ekoloji böhran, iqlim dəyişmələri, bioloji müxtəlifliyin azalması, texnoloji inkişafın etik sərhədləri, mədəni kimliyin qloballaşma qarşısında qorunması kimi problemlər getdikcə daha çox aktuallıq qazanır. Bu məsələlərin heç biri tək bir elmin imkanları ilə həll edilə bilməz. Bioloqun, riyaziyyatçının, filosofun, iqtisadçının, mühəndisin, tarixçinin və mədəniyyətşünasın düşüncəsi bir-birini tamamlamalıdır. Bu baxımdan Sevda Məmmədəliyevanın elmi yaradıcılığında müxtəlif bilik sahələrinin əlaqəsinə verilən önəm bu günün elmi çağırışları ilə səsləşir.

Alim ömrünün ən böyük dəyəri onun yaratdığı əsərlərlə yanaşı, həm də cəmiyyətin düşüncəsində açdığı yeni pəncərələrdir. Bəzən bir elmi nəticə laboratoriyanın divarları arasında qalır, bəzən isə illər sonra bütöv bir ictimai düşüncə istiqamətinə çevrilir. Sevda xanımın ekologiya, mədəniyyət, insan və cəmiyyət haqqında araşdırmalarının əhəmiyyəti də bu geniş müstəvidə dəyərləndirilməlidir.

Bulaqların bir gözəlliyi də ondadır ki, onlar axdıqca öz mənbəyini unutmur. Mən Sevda xanımın ömür yolunu düşünəndə Ordubadın dağlarından süzülüb gələn, müxtəlif məcralardan keçərək öz suyunu qoruyan bir bulağı xatırlayıram. Onun mənbəyində Yusif Məmmədəliyev kimi böyük bir alimdən ruh almış mənəvi irs, axarında isə Sevda Məmmədəliyevanın öz zəhməti, düşüncəsi və yaradıcılığı vardır. Bu heç zaman qurumayacaq bulağın suyu Azərbaycan elminə, mədəniyyətinə və insan yaddaşına qarışaraq öz yolunu durmadan davam etdirir.

İradə HÜSEYNOVA,
akademik

20 Noyabr Ümumdünya Uşaqlar Günüdür

Uşaq hüquqlarının təmini: müasir çağırışlar və Ombudsmanın rolu



Uşaqların hərtərəfli inkişafının dəstəklənməsi, onların təhlükəsizliyinin və sosial rifahının təmini dövlət və cəmiyyətin qarşısında duran mühüm vəzifələrdəndir. Bu baxımdan hər bir ölkədə uşaqların hüquq və azadlıqlarının müdafiəsi, ayrı-seçkiliyə yol verilmədən bərabər imkanlardan yararlanması üçün zəruri şəraitin yaradılması xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq səviyyədə uşaq hüquqlarının müdafiəsinin fundamental hüquqi əsasını 1989-cu il 20 noyabr tarixində Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyası tərəfindən qəbul edilmiş "Uşaq hüquqları haqqında" Konvensiya (bundan sonra - Konvensiya) təşkil edir. Azərbaycanın da tərəfdar çıxdığı bu beynəlxalq sənəd milli qanunvericiliyin və uşaq hüquqlarının müdafiəsi sisteminin formalaşdırılması üçün mühüm hüquqi baza rolunu oynayır.

Azərbaycanda uşaqların hüquqlarının və qanuni mənafelərinin qorunması dövlət siyasətinin əsas prioritetlərindən biridir. Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə həyata keçirilən ardıcıl tədbirlər uşaqların etibarlı müdafiəsinə, onların sosial təminatının gücləndirilməsi və inkişafı üçün əlverişli şəraitin yaradılmasına xidmət edir.

Heydər Əliyev Fondu tərəfindən uşaqların, xüsusilə çətin həyat şəraitində yaşayan uşaqların hüquqlarının qorunması sahəsində həyata keçirilmiş çoxsaylı təşəbbüslər onların müxtəlif xidmətlərdən yararlanmasında mühüm rol oynayır. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın hər zaman uşaqlara xüsusi diqqət göstərməsi, uşaq müəssisələrinə müntəzəm şəkildə baş çəkərək onların qayğıları ilə yaxından maraqlanması, həssas qruplardan olan uşaqlar üçün müxtəlif tədbirlərin təşkil olunması və onlara zəruri dəstək göstərilməsi kimi təşəbbüsləri cəmiyyətdə humanizm ideyalarını təşviq etməklə yanaşı, uşaq hüquqlarının təminində də mühüm töhfə verir.

Son illər ölkəmizdə mütəmadi şəkildə uşaq hüquqları sahəsində hüquqi baza və institusional mexanizmlər müasir çağırışlara uyğun olaraq təkmilləşdirilir. Cari ildə yeni "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun və əlaqəli normativ-hüquqi aktların, habelə uşaqların sosial şəbəkələrdən istifadəsinə dair qanunvericilik aktlarının qəbul edilməsi ictimai münasibətlərin yeni tələblərə uyğun tənzimlənməsinə yönəlmişdir. Qəbul edilmiş qanunvericilik aktları ölkədə uşaqların müdafiə sisteminin təkmilləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

Milli insan hüquqları təsisatları uşaqların hüquq və azadlıqlarının müdafiəsi sahəsində mühüm institusional mexanizmlərdən biri kimi çıxış edir. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) tərəfindən beynəlxalq standartlar və müasir çağırışlar nəzərə alınmaqla həyata keçirilən çoxşaxəli fəaliyyət uşaqların hüquqlarının səmərəli müdafiəsinə xidmət edir. Milli qanunvericilikdə müəyyən edilmiş səlahiyyətlər ombudsmana uşaqların hüquqlarının təmin olunması vəziyyətinin araşdırılması, pozulmuş hüquq və azadlıqlarının bərpası, bu sahədə preventiv tədbirlərin görülməsi və fəaliyyətin gücləndirilməsi istiqamətində geniş imkanlar yaradır.

Ombudsmanın ünvanına uşaq hüquqlarının pozulması ilə bağlı təsisatda fəaliyyət göstərən "916" Çağrı Mərkəzi və digər vasitələrlə daxil olmuş şikayətlər araşdırılaraq zəruri tədbirlər görülür. Ombudsmana müstəqil monitorinq və milli preventiv mexanizminin funksiyalarının həyata keçirilməsi sahəsində verilmiş səlahiyyətlər çərçivəsində araşdırmalar aparılır, müəyyən edilmiş çatışmazlıqların aradan qaldırılması məqsədilə müvafiq qurumlara tövsiyələr verilir, onların icrası vəziyyəti nəzarətdə saxlanılır. Normativ-hüquqi aktların təhlili və qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə aidiyyəti səlahiyyətli orqanlara təkliflərin göndərilməsi Ombudsmanın fəaliyyətinin əsas istiqamətlərindən biridir.

2026-cı il 3 mart tarixində qəbul edilmiş yeni "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununun layihəsinin hazırlanması prosesində Ombudsman tərəfindən erkən evlilik, uşağın azadlıq və şəxsi toxunulmazlıq, şərəf və ləyaqətinin müdafiəsi, fərdiliyinin qorunması və sosial müdafiə hüquqları, uşaq alverinin, pornoqrafiyasının və istismarının qarşısının alınması, əcnəbi və vətəndaşlığı olmayan uşaqların hüquqları, uşağa qarşı zorakılıq anlayışı, uşaqların repatriasiyası, uşaq hüquqlarının həyata keçirilməsinə nəzarət mexanizmləri və digər məsələlərə dair verilmiş bir sıra təkliflər nəzərə alınmışdır.

Ombudsmanın təklifləri nəzərə alınmaqla Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na 2026-cı ildə edilmiş dəyişikliklərlə uşaq hüquqlarının müdafiəsi və həyata keçirilməsinə dövlət nəzarəti sahəsində Ombudsmanın, Ədliyyə Nazirliyinin və prokurorluq orqanlarının rol və səlahiyyətləri konkretləşdirilmişdir.

Ombudsmanın əvvəlki illik məruzəsində uşaqların olduğu bütün məkanlarda, o cümlədən uşaq müəssisələrində onlara qarşı zorakılığın qadağan edilməsinin qanunvericilikdə ayrıca təsbit olunmasına dair təklifi də nəzərə alınmış, yeni qanunda qeyd edilən müddəalarla yanaşı, internet informasiya ehtiyatlarında və informasiya-telekommunikasiya şəbəkələrində də uşağa qarşı zorakılığın qadağan olunması nəzərdə tutulmaqla həmin təklif daha geniş məzmunda öz hüquqi ifadəsini tapmışdır.

Bununla yanaşı, İnzibati Xətalar Məcəlləsinə edilmiş yeni dəyişikliyə əsasən, valideynlər (onları əvəz edən şəxslər), uşaqlara nəzarəti həyata keçirmək vəzifəsini daşıyan şəxslər tərəfindən uşağa qarşı cismani cəzanın tətbiqinə görə inzibati məsuliyyət müəyyən edilmişdir. Qanunvericiliyə edilən bu dəyişikliklər BMT-nin Uşaq Hüquqları Komitəsinin Azərbaycan Respublikasının dövri məruzələri üzrə qəbul etdiyi Yekun Müşahidələrdə "Uşaqlara qarşı cismani cəzanın bütün məkanlarda, xüsusilə ailədə, məktəblərdə, günərzi qayğı və alternativ qayğı xidmətlərində açıq şəkildə qadağan edilməsinin qanunvericiliklə təsbit edilməsi"nə dair tövsiyələrinin icrası baxımından da əhəmiyyətlidir.

Rəqəmsal texnologiyaların geniş tətbiqi uşaqların informasiya əldə etmək, ünsiyyət və inkişaf imkanlarını genişləndirməklə yanaşı, onların təhlükəsizliyinin və hüquqlarının qorunması ilə bağlı yeni risklər də yaradır. Ombudsmanın müstəqil monitorinq mexanizmi fəaliyyəti çərçivəsində aparılan araşdırmalar uşaqların geniş istifadə etdikləri interaktiv platformalarda və onlayn oyunlarda yaş məhdudiyyətlərinin tətbiqi, fərdi məlumatların qorunması, zərərli məzmun və təsirlərin qarşısının alınması, habelə uşaqlar üçün təhlükəsiz rəqəmsal mühitin formalaşdırılması məsələlərinə diqqətin artırılmasına ehtiyac olduğunu göstərir. Bu məqsədlə ombudsman tərəfindən qanunvericiliyə müvafiq dəyişikliklər edilməsi tövsiyə edilmişdir.

2026-cı il 30 iyun tarixində qəbul edilmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununda uşaqların sosial şəbəkə platformalarından istifadəsi üçün məhdudiyyətlər müəyyən edilmişdir ki, bu da ombudsmanın bu sahədə təkliflərinin icrası baxımından önəmlidir.

Ombudsmanın yetkinlik yaşına çatmamış şahidin dindirilməsi, eləcə də mübahisə ilə mənafelərinə toxunulan uşaqların fikrinin öyrənilməsi zamanı psixoloqun iştirakının təmin olunması, habelə cinsi zorakılığın qurbanı olan uşağa aid istintaq materiallarının cinayət prosesinin iştirakçıları tərəfindən yayılmasının qadağan edilməsi ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi barədə təklifləri cari ildə Azərbaycan Respublikasının Cinayət-Prosessual və Mülki-Prosessual məcəllələrində edilən müvafiq dəyişikliklərdə nəzərə alınmışdır.

Uşaqlar arasında energetik içkilərdən istifadə hallarının geniş yayılması xüsusi diqqət tələb edən məsələlərdəndir. Ombudsman Aparatı tərəfindən aparılan monitorinqin nəticələri və beynəlxalq təcrübənin təhlili onu deməyə əsas verir ki, Azərbaycan Respublikasında energetik içkilərin uşaqlar tərəfindən istifadəsinin qarşısının alınması üçün qüvvədə olan qanunvericiliyin və bununla bağlı mövcud nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac vardır. Aparılan araşdırma və vəziyyətin təkmilləşdirilməsinə dair hazırlanmış təkliflər aidiyyəti dövlət orqanlarına göndərilmiş və verilmiş cavab məktublarında qeyd edilən məsələlərin qurumların fəaliyyətlərində nəzərə alınacağı bildirilmişdir.

Ombudsmanın müstəqil monitorinq fəaliyyəti çərçivəsində aparılan araşdırmaya əsasən, idman yarışlarında və məşq prosesində xüsusilə yüksək riskli və döyüş idman növlərində idmançıların, o cümlədən uşaqların sağlamlığının və təhlükəsizliyinin daha etibarlı təmini məqsədilə mövcud qanunvericiliyin və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi məqsədəmüvafiqdir. Aparılmış araşdırma və vəziyyətin təkmilləşdirilməsinə dair təkliflər səlahiyyətli dövlət qurumuna göndərilmiş, verilmiş cavab məktubunda idmançıların yarışöncəsi və məşq mərhələsindəki icbari tibbi müayinə protokollarının yenilənməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi istiqamətində praktiki tədbirlərin görülməsinin planlaşdırıldığı qeyd edilmişdir.

Ombudsmanın müstəqil monitorinq fəaliyyəti çərçivəsində elektroskuterlər və digər kiçik elektrik nəqliyyat vasitələrinin istifadəsi zamanı insanların, xüsusilə uşaqların həyat və sağlamlığına təsir edə biləcək risklər və bununla əlaqədar münasibətlərin tənzimlənməsi ilə bağlı təhlil aparılmışdır. Təhlilin nəticəsi olaraq elektroskuterlər və digər kiçik elektrik nəqliyyat vasitələri üzrə hüquqi tənzimləmənin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, təhlükəsizlik dəbilqəsindən istifadənin məcburi norma kimi müəyyən edilməsi, uşaqların qorunmasına yönəlmiş valideyn məsuliyyətinin gücləndirilməsi, dövlət qeydiyyatı və identifikasiya mexanizmlərinin yaradılmasının zəruri olduğu müəyyən edilmişdir. Təhlil əsasında irəli sürülən təkliflər səlahiyyətli dövlət orqanı tərəfindən məqbul hesab edilərək qurumun normayaratma fəaliyyəti prosesində nəzərə alınacağı bildirilmişdir.

Ombudsman və nümayəndələri uşaqlarla, xüsusilə çətin həyat şəraitində yaşayan uşaqlarla görüşərək onların fikirlərini dinləyir, problemlərinin həlli istiqamətində zəruri addımlar atılır. Təsisatın əməkdaşları Suriya Ərəb Respublikasından gətirilmiş repatriantlarla, habelə miqrant uşaqlarla görüşmüş, uşaqların hüquqlarının təmini vəziyyətini öyrənərək, onlara zəruri dəstək göstərilmişdir.

Uşaq hüquqları sahəsində mövcud problemlərin qarşısının alınmasında maarifləndirmə işlərinin əhəmiyyətini nəzərə alaraq, ombudsmanın fəaliyyətində uşaq hüquqlarının təşviqinə xüsusi önəm verilir. Hər il olduğu kimi, cari ildə də konvensiyanın qəbul edilməsinin ildönümü ərəfəsində, 20 oktyabr - 20 noyabr tarixləri Ombudsman tərəfindən "Uşaq Hüquqları Aylığı" elan edilib. Aylığın əsas məqsədi uşaq hüquqlarının müdafiəsi sahəsində ictimai diqqətin artırılması, uşaqların hüquqları barədə məlumatlılığın genişləndirilməsi, onların hüquq və azadlıqlarının təşviqi, eləcə də bu sahədə dövlət orqanlarının, vətəndaş cəmiyyəti institutlarının və digər aidiyyəti qurumların fəaliyyətinin əlaqələndirilməsinə töhfə verməkdir.

"Uşaq Hüquqları Aylığı" çərçivəsində həyata keçirilən tədbirlər uşaqların hüquqlarının təşviqi və təmin olunması vəziyyətinin qiymətləndirilməsi baxımından xüsusi əhəmiyyət daşıyır. Bu tədbirlər yalnız hüquqların təbliği ilə məhdudlaşmamalı, eyni zamanda mövcud problemlərin müəyyən edilməsi, hüquq pozuntularının qarşısının alınması və onların aradan qaldırılması istiqamətində konkret təşəbbüslərlə müşayiət olunmalıdır.

Aylıq çərçivəsində Ombudsmanın Aparatı və Naxçıvan, Şimal, Cənub, Şimal-Qərb, Qərb regional mərkəzləri tərəfindən paytaxtda və regionlarda aidiyyəti qurumların iştirakı ilə uşaq hüquqlarına dair silsilə maarifləndirici tədbirlər və monitorinqlər həyata keçirilmişdir.

Ombudsman tərəfindən insan hüquqları, uşaq hüquqları ilə bağlı elan olunmuş aylıqlarda keçirilən tədbirlərlə yanaşı, il ərzində mütəmadi olaraq müvafiq dövlət orqanları, vətəndaş cəmiyyəti institutları və digər aidiyyəti qurumlarla əməkdaşlıqda uşaqların da iştirakı təmin edilməklə müxtəlif mövzularda tədbirlər təşkil olunur.

Hər bir dövlət və cəmiyyətdə müasir çağırışlar nəzərə alınmaqla mütəmadi olaraq uşaqların hüquqlarının müdafiəsinə diqqətlə yanaşılması, hüquq pozuntularının qarşısının alınması və pozulmuş hüquqlarının bərpasında səylərin birləşdirilməsi bu sahədə mövcud məsələlərin operativ və səmərəli həllində mühüm amil kimi çıxış edir.

Gəlin səylərimizi birləşdirməklə müasir dövrün çağırışlarını nəzərə alaraq, uşaqların hüquqlarının qorunmasına birlikdə töhfə verək!

Səbinə ƏLİYEVA,
Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), hüquq üzrə fəlsəfə doktoru

20 Noyabr Ağdam Şəhəri Günüdür

Ağdamın dirçəlişi: dağıntılardan quruculuğa, həsrətdən qayıdışa





"Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın". Prezident İlham Əliyevin söylədiyi bu sözlər işğaldan azad edilmiş Ağdamın gələcəyinə verilən qətiyyətli vədin ifadəsi idi. Bu gün həmin vəd ardıcıl şəkildə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq layihələrində öz əksini tapır. Şəhərin hər guşəsində aparılan tikinti işləri Azərbaycanın öz tarixi torpaqlarına qayıdışının, milli iradəsinin və iqtisadi qüdrətinin göstəricisidir.

Qarabağın mərkəzində yerləşən Ağdam Azərbaycanın qədim tarixə, zəngin mədəni irsə və füsunkar təbiətə malik bölgələrindən biridir. Əsrlər boyu bu torpaq özünəməxsus adət-ənənələri, sənətkarlıq nümunələri, musiqi mühiti və zəhmətkeş insanları ilə tanınıb. Ağdam təkcə yaşayış məntəqəsi deyil, həm də Qarabağın ictimai, iqtisadi və mədəni həyatında mühüm yer tutan şəhər olub. Burada formalaşmış zəngin mədəni mühit, tarixi abidələr, təhsil və mədəniyyət ocaqları xalqımızın mənəvi irsinin ayrılmaz hissəsinə çevrilib. Lakin ötən əsrin sonlarında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində Ağdamın inkişafı dayandı, on minlərlə insan öz doğma yurdundan didərgin düşdü. 1993-cü ildə Ağdam uğrunda 42 gün davam edən ağır döyüşlər iyulun 23-də rayon ərazisinin təxminən 73 faizinin işğalı ilə nəticələndi. İnsanlar illərlə yaşadıqları evlərini, ata-baba ocaqlarını, doğmalarının məzarlarını tərk etmək məcburiyyətində qaldılar. Şəhərin yaşayış binaları, məktəbləri, xəstəxanaları, mədəniyyət müəssisələri və digər obyektləri dağıdıldı. Tarixi və dini abidələr vandalizmə məruz qaldı, maddi-mədəni irs nümunələri talan edildi. Ağdamın bir zamanlar həyat qaynayan küçələri tədricən viranəliyə çevrildi. Şəhərdə törədilən dağıntıların miqyası o qədər böyük idi ki, Ağdam beynəlxalq ictimaiyyətdə "Qafqazın Xirosiması" kimi tanınmağa başladı.

2020-ci ildə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər bu həsrətə son qoydu. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə edilən Qələbə nəticəsində bölgədə yeni reallıqlar yarandı. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonunun işğal altında qalan əraziləri Azərbaycana qaytarıldı. Beləliklə, Ağdamın azadlığı əlavə hərbi əməliyyatlar aparılmadan təmin edildi və mümkün insan itkilərinin qarşısı alındı. Bu tarixi hadisə xalqımızın yaddaşına qürur və sevinc günü kimi həkk olundu. Ağdamın azad edilməsi Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində əldə etdiyi mühüm nailiyyətlərdən biri olmaqla yanaşı, Qarabağda genişmiqyaslı quruculuq mərhələsinin başlanğıcını qoydu.

Ağdamın azad olunmasından cəmi üç gün sonra - 2020-ci il noyabrın 23-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın rayona səfəri mühüm tarixi hadisə oldu. Dövlət başçısı Ağdam şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı, işğal dövründə dağıntılara məruz qalmış Ağdam Cümə məscidini ziyarət etdi. Həmin səfər təkcə azad edilmiş torpaqlara qayıdışın deyil, həm də gələcək quruculuq işlərinə verilən yüksək siyasi əhəmiyyətin ifadəsi idi. Prezidentin Ağdamın bərpası ilə bağlı müəyyən etdiyi vəzifələr sonrakı illərdə həyata keçirilən irimiqyaslı layihələrin əsas istiqamətləri oldu.

Prezident İlham Əliyevin 31 iyul 2023-cü il tarixli sərəncamı ilə 20 noyabr Ağdam Şəhəri Günü kimi müəyyən edildi. Bu əlamətdar tarix Ağdamın azadlığının, onun sakinlərinin doğma yurda qayıdışının və şəhərin yenidən dirçəlişinin rəmzinə çevrildi. Ağdam Şəhəri Günü həm də xalqımızın keçdiyi ağır tarixi yolun, torpaqlarımızın azadlığı uğrunda göstərilən qəhrəmanlığın və şəhidlərimizin əziz xatirəsinin ehtiramla yad edildiyi gündür.

Bu gün Ağdam Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçirilən bərpa və yenidənqurma işlərinin ən mühüm mərkəzlərindən biridir. Şəhərin inkişafı təsadüfi və pərakəndə şəkildə deyil, uzunmüddətli strateji planlaşdırma əsasında həyata keçirilir. "Ağdam şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Ağdamın Baş planı işğaldan azad edilmiş rayonların şəhərləri arasında ilk təsdiqlənən plan olub. Sənəddə şəhərin müasir urbanizasiya prinsipləri əsasında inkişafı, yaşayış və ictimai məkanların yaradılması, nəqliyyat şəbəkəsinin formalaşdırılması, yaşıllıqların genişləndirilməsi və dayanıqlı infrastrukturun qurulması nəzərdə tutulur. Baş plana əsasən, Ağdamın gələcəkdə 100 min nəfərlik əhalisi olan iri şəhərə çevrilməsi hədəflənir. Ağdamın Azərbaycanın dördüncü böyük şəhəri kimi inkişaf etdirilməsi nəzərdə tutulur. Bu məqsəd Ağdamın yalnız əvvəlki yaşayış mühitinin bərpasını deyil, həm də onun yeni iqtisadi və sosial imkanlara malik regional mərkəz kimi formalaşdırılmasını əhatə edir. Müasir şəhərsalma prinsipləri burada insanların rahat yaşayışı, ictimai xidmətlərə əlçatanlığı, ekoloji tarazlığın qorunması və iqtisadi fəaliyyətin genişləndirilməsi ilə uzlaşdırılır.

Şəhərdə aparılan tikinti-quruculuq işləri artıq konkret nəticələrini göstərir. Ağdamın özündə beş yaşayış məhəlləsinin salınması nəzərdə tutulub. Onlardan ikisinin açılışı həyata keçirilib, digərlərinin isə təməli qoyulub. Yeni yaşayış məhəlləsi müasir mənzillər, abad həyətlər, mühəndis-kommunikasiya sistemləri və sosial infrastrukturla təmin edilir. Ağdam rayonunda quruculuq işləri şəhərlə məhdudlaşmır. "Böyük qayıdış" proqramı çərçivəsində kəndlərin yenidən qurulması da ardıcıl şəkildə davam etdirilir. Köngərli, Xıdırlı və Sarıcalı kəndlərinin birinci mərhələlərinin açılışı həyata keçirilib. Qiyaslı, Salahlı, Köngərli, Qərvənd, Tağıbəyli, Güllücə, Nəmirli, Soltanlı və Eyvazxanbəyli kəndlərinin təməlinin qoyulması isə rayonun yaşayış coğrafiyasının mərhələli şəkildə bərpa olunduğunu göstərir. Hazırda Ağdam şəhərində 3604 nəfər (1002 ailə) məskunlaşıb. Xıdırlı kəndində 659 ailə olmaqla 2621 nəfər, Köngərli kəndində 292 ailə olmaqla 1261 nəfər, Sarıcalı kəndində isə 193 ailə olmaqla 814 nəfər yaşayır.

Ağdamın yenidən qurulmasında iqtisadi inkişaf və məşğulluq məsələləri də xüsusi yer tutur. Şəhərin dayanıqlı gələcəyini təmin etmək üçün burada müasir istehsal və xidmət sahələrinin formalaşdırılmasına böyük diqqət yetirilir. Ağdam Sənaye Parkının yaradılması bu istiqamətdə atılmış mühüm addımlardandır. Sənaye Parkında müxtəlif təyinatlı müəssisələrin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasına, yerli istehsalın genişlənməsinə və sahibkarlıq mühitinin inkişafına imkan yaradır. Bu layihələr Ağdamın yalnız yaşayış məkanı kimi deyil, həm də Qarabağın iqtisadi fəallıq mərkəzlərindən biri kimi inkişafına xidmət edir.

Rayonun nəqliyyat infrastrukturunun bərpası da iqtisadi və sosial dirçəlişin vacib şərtlərindəndir. Bərdə-Ağdam avtomobil və dəmir yolu xətləri, Ağdam Dəmir Yolu və Avtovağzal Kompleksi şəhərin ölkənin digər bölgələri ilə əlaqələrini genişləndirir. Müasir nəqliyyat şəbəkəsi həm sakinlərin rahat hərəkətini təmin edir, həm də yükdaşımaların, ticarətin və turizmin inkişafına əlverişli şərait yaradır. Bununla yanaşı, elektrik enerjisi, su təchizatı, rabitə və digər kommunal sistemlərin qurulması yeni yaşayış məntəqələrinin fasiləsiz fəaliyyətinə xidmət edir. Ağdamın bərpasında tarixi-mədəni irsin qorunması da mühüm istiqamətlərdəndir. İşğal dövründə zərər görmüş Ağdam Cümə məscidinin bərpa edilərək 2024-cü ilin aprelində istifadəyə verilməsi şəhərin mənəvi həyatında əlamətdar hadisə oldu. İmarət Kompleksinin bərpası, Ağdam Muğam Mərkəzinin açılışı, mədəniyyət və turizm infrastrukturunun inkişafı şəhərin tarixi kimliyinin yaşadılmasına xidmət edir. Bu layihələr bir daha göstərir ki, Ağdamın yenidən qurulması yalnız müasir binaların inşasından ibarət deyil. Əsas məqsəd şəhərin keçmişini, milli-mənəvi dəyərlərini və özünəməxsus mədəni mühitini gələcək nəsillərə çatdırmaqdır.

Bərpa prosesinin mühüm istiqamətlərindən biri də ekoloji təhlükəsizliyin təmin olunmasıdır. Uzun illər işğal altında qalmış ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi yaşayışın və təsərrüfat fəaliyyətinin bərpası üçün zəruri şərtdir. Eyni zamanda yaşıllıqların salınması, parkların yaradılması, təbii mühitin qorunması və müasir ekoloji yanaşmaların tətbiqi Ağdamın sağlam və təhlükəsiz şəhərə çevrilməsinə xidmət edir. Bu işlər gələcək nəsillərin daha əlverişli mühitdə yaşamasına hesablanmış uzunmüddətli inkişaf siyasətinin tərkib hissəsidir. Bir zamanlar dağıntıların, ayrılığın və həsrətin rəmzinə çevrilmiş Ağdam indi dirçəlişin, qayıdışın və quruculuğun ünvanıdır.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

İtkin talelər, cavabsız suallar

İrəvanda keçirilən beynəlxalq konfransda azərbaycanlı itkinlərin taleləri də müzakirə mövzusu olmalıdır

Müharibələr bitir, silahlar susur, dövlətlər sülhdən, əməkdaşlıqdan, gələcək planlardan danışırlar. Beləcə, həyat öz axarına qayıdır, zaman keçir, nəsillər dəyişir. Ancaq elə insanlar, ailələr var ki, onlar üçün zaman dayanıb. Çünki onların doğması, əzizi müharibənin qaranlığında izsiz yoxa çıxıb.

O gündən bəri hər qapı döyüntüsü, hər telefon zəngi bir ümidə, hər xəbər illərdir axtardıqları həqiqətin işığına çevrilir. Ana oğlunun yolunu gözləyir, övlad atasının nə vaxt qayıdacağını soruşur, həyat yoldaşı bir gün yenidən qovuşacaqları ümidi ilə yaşayır. İllər ötsə də, süfrədə sahibini gözləyən bir yer boş qalır, bir otağın qapısı "bəlkə qayıdar" deyə açıq saxlanılır, bir insanın adı hər gün dualarda çəkilir.

Ən ağırı isə budur ki, bu ailələr nə doğmalarının sağ olduğuna inanmaqdan əl çəkə bilir, nə də onların itkisi ilə barışıb yas tuta bilirlər. İtkinliyin ağrısı ölümün acısından da fərqli - sonu və cavabı bilinməyən bir gözləntidir. Müharibə bitsə də, onların qəlbindəki müharibə bitmir. İtkin düşmüş insanın taleyi aydınlaşmayınca, onu gözləyən ailə üçün nə zaman keçir, nə də sülh tam mənasını tapır. Söhbət təbii ki, Qarabağ savaşı itkinlərindən gedir.

Bu baxımdan noyabrın 19-20-də İrəvanda keçirilən "İtkin düşmüş şəxslərin taleyi: humanitar dialoq və əməkdaşlıq" mövzusunda beynəlxalq konfrans xüsusi diqqət mərkəzində olacaq. Humanitar dialoq, itkin ailələrinin hüquqları və beynəlxalq əməkdaşlıq mühüm məsələlərdir. Ancaq belə bir tədbirin nəticəsi onun mövzusunun nə dərəcədə aktual səslənməsi ilə yox, konkret humanitar problemlərin həllinə nə qədər töhfə verməsi ilə ölçülməlidir. Əsas sual cavabını gözləyir - 30 ildən çoxdur taleyi bilinməyən 4010 azərbaycanlı ilə bağlı suallar cavabsız qaldığı halda İrəvanda keçirilən konfrans hansı real nəticələrə hesablanıb? Azərbaycanlı itkinlərin taleyi barədə məlumatların açıqlanması bu müzakirələrin əsas istiqamətlərindən biri olmayacaqsa, humanitar dialoqun praktik əhəmiyyəti necə təmin ediləcək?

Azərbaycanın Dövlət Komissiyasının 2026-cı il 31 avqust tarixinə olan məlumatına görə, Birinci və İkinci Qarabağ müharibələri zamanı 4010 vətəndaşımız itkin düşmüş şəxs kimi qeydiyyatdadır. Onlardan 4004 nəfəri Birinci, 6 nəfəri isə İkinci Qarabağ müharibələrində itkin düşüb. Birinci müharibə üzrə itkinlərin arasında 782 mülki şəxs, o cümlədən 71 uşaq, 288 qadın və 319 ahıl insan var. Aparılan axtarışlar nəticəsində 328 nəfərin şəxsiyyəti müəyyənləşdirilib, 32 kütləvi məzarlıq aşkarlanıb. Qeyd etmək lazımdır ki, 4010 nəfər qeydiyyatda olan itkinlərin ümumi sayıdır, sonrakı identifikasiya işləri nəticəsində 3682 nəfər hələ də itkin hesab olunur.

Azərbaycan-Ermənistan münasibətlərində sülh gündəliyinin irəlilədiyi indiki mərhələdə bu problemin həlli xüsusi əhəmiyyət daşıyır. Sülh diplomatik sənədlərin imzalanması, sərhədlərin müəyyənləşdirilməsi və iqtisadi əlaqələrin qurulması demək deyil. Əsl sülh münaqişənin doğurduğu humanitar nəticələrin aradan qaldırılmasını, qurbanların taleyinə aydınlıq gətirilməsini və ailələrin fundamental hüquqlarının təmin olunmasını da ehtiva edir. İtkinlərin taleyi bu baxımdan keçmişin mübahisəsi olmaqla yanaşı, həm də bu günün həllini gözləyən humanitar və hüquqi məsələdir.

2025-ci il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidentinin iştirakı ilə Azərbaycan və Ermənistan liderlərinin Birgə Bəyannaməsi imzalanıb, iki ölkə arasında sülh sazişinin razılaşdırılmış mətni paraflanıb. Saziş layihəsinin 9-cu maddəsində silahlı münaqişə zamanı itkin düşmüş şəxslər və məcburi yoxaçıxma halları üzrə əməkdaşlıq öhdəliyi əksini tapıb. Həmin maddəyə əsasən, tərəflər mövcud məlumatların mübadiləsini, itkinlərin taleyinin araşdırılmasını, zərurət olduqda qalıqların axtarılıb qaytarılmasını, eləcə də müvafiq istintaq tədbirlərini nəzərdə tutan əməkdaşlıq həyata keçirməlidirlər. Deməli, bu məsələ həm humanitar çağırış, həm də sülh sənədində öz əksini tapmış konkret əməkdaşlıq istiqamətidir.

Əslində, bu istiqamətdə müəyyən təmaslar da mövcuddur. 2025-ci ilin fevralından Azərbaycan və Ermənistanın itkin düşmüş şəxslər üzrə müvafiq dövlət komissiyaları arasında birbaşa əlaqələr qurulub, görüşlər keçirilib və məlumat mübadiləsi aparılıb. Azərbaycan tərəfi müxtəlif mənbələrə və şahid ifadələrinə əsaslanaraq Birinci Qarabağ müharibəsində əsir və girov götürülmüş, beynəlxalq təşkilatlardan gizli saxlanıldığı bildirilən 834 azərbaycanlının siyahısını, 104 nəfər barədə ətraflı məlumatları qarşı tərəfə təqdim edib. Beynəlxalq Qızıl Xaç Komitəsinin qeydiyyatında olmuş 54 azərbaycanlı ilə bağlı məlumatlar da müzakirəyə çıxarılıb. Azərbaycan Dövlət Təhlükəsizliyi Xidmətinin rəhbəri Əli Nağıyevin 2026-cı il oktyabrın 7-də açıqladığı məlumatlara görə, həmin 54 nəfərdən 17-sinin nəşi qaytarılıb, 33 nəfərin saxlanma yerlərində öldüyü bildirilsə də, qalıqları təhvil verilməyib, 4 nəfərin taleyi isə hələ də məlum deyil.

Bu faktlar fonunda Ermənistan tərəfinin məlumatların açıqlanması istiqamətində əməli addımlar atması aktuallığını itirmir. Azərbaycan tərəfinin açıqlamalarına görə, iki ölkənin komissiyaları arasında təmaslar zamanı Ermənistan tərəfi 200-dən çox dəfn yerinin, o cümlədən kütləvi məzarlıqların koordinatlarını təqdim edəcəyini bildirib. Lakin bu məlumatların tam şəkildə təqdim edilməməsi axtarışların nəticələrinə mənfi təsir göstərir. Digər tərəfdən, Ermənistanın keçmiş hərbi rəhbərliyində təmsil olunmuş bəzi şəxslərin azərbaycanlı itkinlərin dəfn yerləri barədə məlumatlı olduqlarını bildirmələri də məsələnin araşdırılmasının vacibliyini artırır. Bu məlumatların müvafiq dövlət qurumlarına təqdim edilməsi, şahidlərin ifadələrinin toplanması və arxivlərin açılması zəruridir.

Problemin digər mühüm istiqaməti mümkün müharibə cinayətlərinin araşdırılmasıdır. Azad edilmiş ərazilərdə aşkarlanan 32 kütləvi məzarlıqda aparılan ekspertiza və identifikasiya işləri itkinlərin hansı şəraitdə həyatlarını itirdiklərinin müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Qalıqlar üzərində aparılan məhkəmə-tibbi ekspertizalar ölüm səbəblərinin, zorakılıq və işgəncə əlamətlərinin araşdırılmasına imkan yaradır. Bu baxımdan dəfn yerlərinin koordinatlarının açıqlanması ailələrin doğmalarının məzarını tapması üçün deyil, mümkün cinayətlərin obyektiv araşdırılması və hüquqi qiymət verilməsi üçün də vacibdir.

İtkinlərin axtarışı ilə mina təhlükəsi arasında da birbaşa əlaqə var. Bəzi ehtimal olunan dəfn yerlərinin ətrafında mina və partlamamış hərbi sursatların mövcudluğu axtarış qruplarının fəaliyyətini çətinləşdirir, hətta təhlükəli edir. Ermənistanın dəfn yerləri ilə yanaşı, dəqiq mina xəritələrini də təqdim etməsi axtarışların sürətlənməsinə və mütəxəssislərin təhlükəsizliyinin təmin olunmasına xidmət edə bilər.

Bu məqamda xususi olaraq qeyd edək ki, beynəlxalq humanitar mexanizmlərin fəaliyyəti də diqqətdən kənarda qalmamalı, qiymətləndirilməlidir. Beynəlxalq Qızıl Xaç Komitəsinin uzun illər itkin düşmüş şəxslərin axtarışı və əsirlərin qeydiyyatı istiqamətində fəaliyyəti olsa da, 54 azərbaycanlının taleyi ilə bağlı ortaya çıxan suallar bu sahədə nəticəyönümlü əməkdaşlığın vacibliyini göstərir. Minlərlə ailənin hələ də cavab gözləməsi beynəlxalq təşkilatların imkanlarının, məlumat mübadiləsi mexanizmlərinin və hesabatlılığın təkmilləşdirilməsini zəruri edir.

Prezident İlham Əliyevin 2026-cı il oktyabrın 7-də Bakı Dialoqu Formatında keçirilən IV beynəlxalq konfransın iştirakçılarına müraciətində səsləndirdiyi təşəbbüslər xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısı Ermənistanı itkin azərbaycanlıların taleyi, kütləvi və fərdi dəfn yerləri barədə bütün məlumatları təqdim etməyə, müvafiq arxivlərin açılmasına və şahid ifadələrinin toplanmasına şərait yaratmağa çağırıb. Eyni zamanda BMT çərçivəsində itkin düşmüş şəxslərlə bağlı xüsusi mexanizmin yaradılmasını təklif edib. Bu təşəbbüs problemin təkcə regional müstəvidə deyil, beynəlxalq humanitar gündəlik çərçivəsində də sistemli həllinə xidmət edə bilər.

Sözsüz ki, itkin ailələrinin səsi də beynəlxalq ictimaiyyətə çatdırılmalıdır. "Qarabağ İtkin Ailələri" İctimai Birliyinin 2025-ci ildə Cenevrədə BMT-nin Avropa qərargahı qarşısında, 2026-cı ilin oktyabrında isə Brüsseldə Avropa Parlamenti və Avropa İttifaqının müvafiq təsisatları qarşısında keçirdiyi aksiyalar bu mübarizənin mühüm tərkib hissəsidir. Ailələrin tələbi siyasi mülahizələrdən asılı olmayaraq, sadə və insani mahiyyət daşıyır - onlar doğmalarının taleyi barədə həqiqəti bilmək istəyirlər.

İrəvandakı konfransda Ermənistanın da öz itkinləri ilə bağlı problemlərinin olduğunu dilə gətirməsi və Azərbaycanla əməkdaşlığı vacib sayması diqqətə alınmalıdır. Ermənistanın baş naziri Nikol Paşinyan dünənki çıxışında ölkəsində təxminən 1000 nəfərin itkin hesab edildiyini, o cümlədən 1990-cı illərin əvvəllərindən bəri 777 nəfərin taleyinin naməlum qaldığını bildirib. Bu, problemin qarşılıqlı humanitar əməkdaşlıq əsasında həllinin mümkünlüyünü bir daha gündəmə gətirir. Lakin əməkdaşlıq qarşılıqlı, konkret və şəffaf olmalıdır. Birmənalı olaraq hər iki tərəfin ailələri eyni - həqiqəti bilmək hüququna malikdirlər. İrəvanda keçirilən beynəlxalq konfransın əhəmiyyəti səsləndirilən bəyanatlarla deyil, onun real nəticələri ilə müəyyənləşəcək. Ermənistan tərəfi azərbaycanlı itkinlərin taleyi barədə məlumatları, dəfn yerlərinin koordinatlarını, arxiv sənədlərini və mina xəritələrini təqdim etməli, şahidlərin dindirilməsi və müstəqil araşdırmalar üçün şərait yaratmalıdır. Beynəlxalq təşkilatlar isə bu prosesin ardıcıl izlənməsinə və konkret nəticələrin əldə edilməsinə töhfə verməlidirlər.

Unutmayaq ki, 4010 rəqəmi, sadəcə, statistika deyil, bu rəqəm minlərlə ailənin cavabsız qalmış sualları, yarımçıq xatirələri və bitməyən gözləntiləridir. Sülhün həqiqi dəyəri gələcəyə dair vədlərlə deyil, keçmişin ağrılı suallarına verilən dürüst cavablarla ölçülür. İtkinlərin taleyi aydınlaşdırılmadan, ailələrə həqiqət çatdırılmadan humanitar dialoqun tam nəticəsindən danışmaq mümkün deyil. İrəvandakı konfransın qarşısında duran əsas vəzifə də məhz bu olmalıdır - itkinlər mövzusunu beynəlxalq müzakirə predmetindən konkret humanitar fəaliyyətə çevirmək.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Soltanlı kəndində daha 16 ailəyə evlərinin açarları təqdim olunub

İşğaldan azad olunan Cəbrayıl rayonu Soltanlı kəndinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.

AZƏRTAC xəbər verir ki, Soltanlı kəndi bu gün 16 ailə olmaqla 80 nəfərə qucaq açıb. Ailələr yenidən qurulan kəndə qədəm qoyub və doğma yurdlarında yaradılan gözəlliyi seyr ediblər.

Ümumi sahəsi 108,5 hektar olan Soltanlı kəndində 420 fərdi ev inşa edilib. Evlər 2, 3, 4, 5 otaqlıdır və müasir kommunikasiya şəbəkəsi - su, işıq, qaz, Günəş panelləri, yüksəksürətli internetlə təmin olunub. Kənddaxili yollara asfalt döşənib. Layihə üzrə Soltanlı kəndində ikimərtəbəli inzibati bina, uşaq bağçası, həkim-tibb məntəqəsi, həmçinin çoxfunksiyalı bina tikilib. Kənddə aptek, market, dərzi, gözəllik salonu və digər xidmət mərkəzləri üçün nəzərdə tutulmuş bir və ikimərtəbəli hissələrdən ibarət olmaqla çoxfunksiyalı bina inşa edilib.

Doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlər onlara göstərilən dövlət qayğısından böyük məmnunluq duyaraq, yaradılan müasir yaşayış şəraitinə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər. Sakinlər bu tarixi Qələbəni bizə bəxş edən, torpaqlarımızı işğaldan canı bahasına qurtaran qəhrəman şəhidlərimizin əziz xatirəsini ehtiramla anıb, onlara Allahdan rəhmət diləyiblər. Eyni zamanda döyüşlərdə şücaət göstərən qazilərimizə uzun ömür və cansağlığı arzulayan sakinlər azad edilmiş ərazilərdəki dirçəlişin məhz bu fədakarlıq sayəsində mümkün olduğunu bildiriblər.



Soltnalı kəndinə köçən ailələr qarşılandıqdan sonra onlara ANAMA-nın əməkdaşları tərəfindən mina və partlamamış hərbi sursatların yaratdığı təhlükələr barədə ətraflı məlumat verilib. Ailələrə tanımadıqları naməlum əşya və cisimlərdən uzaq durmaları, belə hallarla qarşılaşdıqları təqdirdə isə aidiyyəti qurumlara məlumat vermələri tövsiyə olunub. Açarların təqdim olunması mərasimində Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin əməkdaşları və digər rəsmi şəxslər iştirak ediblər.

Mənəviyyat mövzusunda

"Paylaşın ki, çox adam xəbərdar olsun..."



İnsanın ruh halı həmişə eyni olmur. Fərəh, sevinc, qəm, kədər kimi hisslər ilin dörd fəsli kimi adamı sanki təqib edir. Amma nədənsə fərəh, sevinc etibarsızdır. Yəni sənin lə çox qalmaq arzusu onun cismində qətiyyən yoxdur. Gəlir, sənin lə dəqiqə, saat, ən çoxu bir gün keçirir və uçub gedir. Gedişi sürətli olduğu üçün "uçur" sözünü işlədirəm. Qəribədir ki, onun gəlişini gözləyirsən, intizarında olursan, amma o, bu istəyin qarşısında hətta sənə laqeydlik də edə bilir. Gəldim nə xoş, indisə… Hətta hələlik belə söyləmir. Onun tərsi olan kədər isə uça-uça gəlir, sürünə-sürünə, sənin lə sanki canbir qəlb kimi ayrılmaq istəməyərək gedir. Özü də ayrılanda "yenə gələcəyəm" söyləməyi unutmur. Görəsən, onu qayıdacağına bu qədər əmin edən nədir? Dünyamızın, daha doğrusu, insanların vəfasızlığımı, dərdə şərik olanların azlığımı, yoxsa …

Dərd-kədər içində olana təskinlik vermək kimi bir qayda, adət olub. "Dərdinizə şərikəm" sözü elə bu adətdən yaranıb. Amma indi kədər birini üzürsə, başqası üçün az qala gəlir mənbəyinə çevrilir. Sosial platformada izləyici ovuna çıxanlar belə ağır yükü göydə qapırlar. Nəinki təskinlik verməyə çalışırlar, əksinə, odun üstünə yağ tökürlər ki, daha artıq alovlansın. Hətta "müdriklik" libasına bürünüb məsləhətlər də verməyə çalışırlar, gərək belə etməyəydiniz və s. Bu ya vəlvələdən, ya da zəlzələdən baş verib. Axı niyə insanın kədəri ilə oynayırsınız?!

Fenomen başqalarına davranışları, baxışları ilə təsir gücünə malik insanlara deyilsə də, artıq bu söz öz əvvəlki mənasını itirib. Dərdimiz, kədərimiz, adət-ənənəmiz, baxışlarımız bu dırnaqarası insanların əlində gəlir mənbəyinə çevrilib. Odur ki, kədəriniz sizi nə qədər incitsə də, onu çoxlarına söyləməyin, yəni onu ictimailəşdirməyə çalışmayın. Çünki ona şərik olanlar az, özləri üçün reytinq toplayanlar çox olacaq. Artıq bəzilərində acıma hissi yoxa çıxıb, onun yerini hərislik tutub. Bir qisim insanlarda özgəsinin kədərində sevinc axtarmaq, gəlir götürmək həvəsinə çevrilib. "Paylaşın ki, çox adam xəbərdar olsun" cümləsi yaranandan insanlığa məxsus ülvi hisslər göyə qalxıb, yox olub! Çünki həmin cümlə əsassız şayiələrə, şərə, böhtana, başqasının kədərindən mənfəət götürməyə xidmət edir.

Rəfiqə SADIQOVA,
yazıçı-jurnalist

Fuad Əbdürrəhmanov "Xalq Əmanəti" layihəsinin 27-ci nəşrində



ASC "Xalq" Bankın təqdim etdiyi "Xalq Əmanəti" layihəsinin 27-ci nəşri Azərbaycan heykəltaraşlıq məktəbinin görkəmli nümayəndələrindən biri, Azərbaycan SSR Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, iki dəfə "Stalin" mükafatı laureatı Fuad Əbdürrəhmanovun həyat və yaradıcılığına həsr olunmuş "Fuad Əbdürrəhmanov. Heykəltaraşlıq" adlı bədii albomdur.


Noyabrın 18-də görkəmli rəssamların, ziyalıların, heykəltaraşların və incəsənət ictimaiyyətinin digər nümayəndələrinin iştirakı ilə nəşrin təqdimat mərasimi keçirilib.

Azərbaycan monumental heykəltaraşlıq sənətinin inkişafında mühüm rol oynamış Fuad Əbdürrəhmanov 11 may 1915-ci ildə Nuxada (indiki Şəki şəhəri) anadan olub. Onun rəsmə olan istedadını ilk kəşf edən rəsm müəllimi Perov olub. Gənc Fuadın yaradıcılıq potensialını görən müəllimi onun istedadının inkişafı üçün ailəsinin Bakıya köçməsini tövsiyə edir. Beləliklə, 1929-cu ilin yayında Əbdürrəhmanovlar ailəsi Bakıya köçür və bu hadisə gələcək sənətkarın peşəkar yaradıcılıq yolunda mühüm mərhələnin başlanğıcı olur.









Fuad Əbdürrəhmanov ilk peşəkar təhsilini Azərbaycan Bədii Texnikumunda (indiki Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbi) alıb. Daha sonra müəllimlərinin tövsiyəsi ilə təhsilini Leninqradda (indiki Sankt-Peterburq) İ.Y.Repin adına Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunda davam etdirib. Məhz bu illərdə onun sənətkarlıq bacarıqları formalaşmağa başlayıb.

Sənətkarın zəngin yaradıcılığında Azərbaycan tarixinin, ədəbiyyatının və mədəniyyətinin görkəmli şəxsiyyətlərinin obrazları xüsusi yer tutur. Bakıda və Gəncədə ucaldılmış Nizami Gəncəvinin abidələri, Nizami adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin eyvanını bəzəyən Məhəmməd Füzulinin heykəli, Səməd Vurğunun abidəsi, paytaxtın memarlıq və bədii simvollarından birinə çevrilmiş "Azad qadın" heykəli, eləcə də sənətkarın yaxın dostu, əfsanəvi kəşfiyyatçı Mehdi Hüseynzadəyə həsr etdiyi monumental əsər onun yaradıcılığının diqqətəlayiq nümunələrindəndir.

Fuad Əbdürrəhmanovun sənət irsi Azərbaycan sərhədləri ilə məhdudlaşmır. Onun əsərləri dünyanın müxtəlif şəhərlərinin ictimai məkanlarını bəzəyərək milli heykəltaraşlıq məktəbimizin beynəlxalq miqyasda tanınmasına töhfə verib. Monqolustanın paytaxtı Ulan-Batorda dövlət xadimləri Suxe Bator və marşal Çoybalsanın monumental abidələri, Tacikistanın Düşənbə şəhərində farsdilli poeziyanın görkəmli nümayəndəsi Rudəkinin, Özbəkistanın Buxara şəhərində isə dünya elminin ən parlaq simalarından biri İbn Sinanın abidələri sənətkarın xarici ölkələrdə ucaldılmış əsərləri sırasındadır.

2026-cı il noyabrın 24-dək ASC "Xalq" Bankın əsas binasında yerləşən rəsm qalereyasında Fuad Əbdürrəhmanovun əsərlərindən ibarət ekspozisiyanı həftəiçi 5 gün saat 18:00-dan 21:00-dək, şənbə və bazar günləri isə saat 10:00-dan 16:00-dək seyr etmək mümkündür. Giriş sərbəstdir. Ünvan: İnşaatçılar pr., 22 L.

"Xalq Əmanəti" layihəsi ASC "Xalq" Bankı tərəfindən 2010-cu ildən etibarən həyata keçirilir. Layihə Azərbaycan xalqının mədəni irsinin qorunub gələcək nəsillərə ötürülməsi, mənəvi dəyərlərinin dünyaya tanıdılması məqsədini daşıyır. Layihə çərçivəsində nəşr olunan kitablar Azərbaycan, ingilis, rus dillərində çap olunur. Nəşrlər ölkənin ali və orta təhsil müəssisələri, uşaq evləri və kitabxanalar, müxtəlif fondlar, dövlət müəssisələri, xarici ölkələrin Azərbaycanda və Azərbaycanın xaricdə fəaliyyət göstərən səfirlik və konsulluqlarına, dünyanın böyük muzeylərinə, kitabxanalarına və sənətsevərlərə hədiyyə olunur. Bu günədək Xalq rəssamları Böyükağa Mirzəzadə, Maral Rəhmanzadə, Səttar Bəhlulzadə, Xalidə Səfərova, Tağı Tağıyev, Mikayıl Abdullayev, xalça rəssamı Lətif Kərimov, əməkdar rəssam Cahid Camal, Ələkbər Rzaquliyev, Mahmud Tağıyev, eləcə də əməkdar incəsənət xadimi Vəcihə Səmədova, Kamal Əhmədlə yanaşı, Mirzə Qədim İrəvani, Şamo Abasov, Fazil Əliyev, Rza Məmmədov, Gennadi Brijatyuk, Qorxmaz Sücəddinov, şəhid-heykəltaraş Samir Kaçayevin əsərlərindən ibarət sərgilər təşkil edilib və bədii albomlar nəşr olunub. Xalq şairləri Məmməd Araz, Hökumə Billuri, Hüseyn Arif, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqub, unudulmaz Mikayıl Müşfiqin və Güney azərbaycan şairlərinin əsərlərindən ibarət antologiya, görkəmli alim-numizmat, professor Əli Rəcəblinin "Azərbaycan sikkələri" kitabı, "Aşıq ədəbiyyatı antologiyası" üçcildliyi, həmçinin dünyaşöhrətli şair-mütəfəkkir Mirzə Şəfi Vazehin Azərbaycan, alman və rus dillərində "Bütün əsərləri" işıq üzü görüb.

Şencendə tarixi üçtərəfli görüş: qlobal çağırışlara ortaq cavab tapılacaqmı?



Çinin Şencen şəhərində Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) 33-cü Zirvə Toplantısı çərçivəsində Çin Xalq Respublikasının Sədri Si Cinpin, ABŞ Prezidenti Donald Tramp və Rusiya Prezidenti Vladimir Putin arasında tarixi üçtərəfli görüş baş tutub. Bu, üç ölkə liderinin indiyədək belə formatda keçirdiyi ilk birgə toplantıdır.

Şencenə gələn Vladimir Putin Si Cinpinlə iki saatdan çox davam edən ikitərəfli danışıqlar aparmışdı. İki liderin indiyədək keçirdiyi 50-ci şəxsi görüşdə iqtisadi əlaqələr, elmi-tədqiqat, innovasiya və enerji təchizatı məsələləri müzakirə olunmuşdu. Si Cinpin iki ölkə arasındakı münasibətlərin dünyada sabitliyə töhfə verdiyini bildirmiş, Putin isə çoxqütblü dünya nizamının formalaşdırılmasının vacibliyini vurğulamışdı. Üçtərəfli Zirvədən əvvəl Donald Tramp həm Rusiya, həm də Çin lideri ilə ayrı-ayrılıqda ikitərəfli görüşlər keçirib. Putini "dostu" adlandıran və onunla "əla münasibətlərinin" olduğunu deyən Trampın bu görüşündən sonra Kreml rəsmiləri danışıqların çox yaxşı keçdiyini, Rusiya liderinin yüksək əhvali-ruhiyyədə olduğunu açıqlayıblar.

Üçtərəfli formatda bir araya gələn liderlər qlobal sülh, dövlətlərarası münasibətlərdə strateji sabitliyin təmin olunması, ticarət əlaqələri, süni intellekt və nüvə silahsızlanması ətrafında fikir mübadiləsi aparıblar. Görüşü "həqiqətən tarix yazmaq" kimi qiymətləndirən ABŞ Prezidenti böyük dövlətlər arasında dialoqun vacibliyini vurğulayaraq "danışıqlardan imtina etməklə heç vaxt sülh əldə edilməyib" deyib. Si Cinpin isə bu görüşü "dönüş nöqtəsi" adlandırıb və bəşəriyyətin vahid "qlobal kənddə" yaşadığını xatırladaraq, böyük güclər arasında müsbət qarşılıqlı fəaliyyətin seçim yox, məcburi tələb olduğunu qeyd edib.

Çin Xarici İşlər Nazirliyinin nümayəndəsi Mao Ninq brifinqdə bəyan edib ki, Çin, Rusiya və ABŞ qlobal çağırışlara qarşı mübarizə aparmaq, sülhə və sabitliyə töhfə vermək məsuliyyəti daşıyırlar. Öz növbəsində Vladimir Putin üç ölkənin İkinci Dünya müharibəsinin qalib dövlətləri və BMT-nin qurucu üzvləri kimi beynəlxalq sülh və təhlükəsizliyə görə ortaq məsuliyyət daşıdığını bildirib, qlobal iqtisadiyyat, enerji və ərzaq təhlükəsizliyi sahələrində konstruktiv əməkdaşlığa çağırıb.

Görüşün əsas müzakirə mövzularından biri nüvə silahlarına nəzarət olub. ABŞ Prezidenti Donald Tramp fevral ayında müddəti başa çatan və Rusiya ilə imzalanmış "Yeni START" müqaviləsinin əvəzinə Çinin də daxil olduğu yeni sazişin hazırlanmasını gündəmə gətirib. D.Tramp üç ölkənin Yer üzündəki nüvə silahlarının sayını azaltmaq üçün unikal mövqedə olduğunu vurğulayıb. O, digər ölkələrdə nüvə silahlarının yayılması təhlükəsinə qarşı birgə mübarizənin vacibliyini qeyd edib.

Diplomatik dairələrdə və beynəlxalq ictimaiyyətdə dünyanın üç aparıcı gücünün bir masa arxasında toplanması mühüm hadisə kimi qiymətləndirilir. Beynəlxalq müşahidəçilər liderlərin bir çox məsələdə fərqli maraqlara malik olması səbəbindən görüşün daha çox siyasi dialoqun bərpası ilə yadda qaldığını qeyd edirlər.

Çin bu sammitdən həm də robototexnika, pilotsuz uçuş aparatları və süni intellekt sahəsindəki texnoloji nailiyyətlərini nümayiş etdirmək üçün yararlanıb. Tədbir çərçivəsində insanabənzər robotların balet rəqsi də nümayiş etdirilib. Rusiya mediası isə görüşün baş tutmasını Rusiya diplomatiyasının uğuru kimi dəyərləndirib.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Paytaxtın daha üç rayonunda qarlı havalara hazırlıqla bağlı müşavirələr keçirilib

Xəbər verildiyi kimi, Bakı Şəhər İcra Hakimiyyətinin tapşırıqlarına uyğun olaraq, paytaxtda qarlı havalara hazırlığın vəziyyəti ilə bağlı şəhərin rayonlarında kommunal, təsərrüfat xidmətlərinin, idarə və təşkilatlarının, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilir.



Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, müşavirələrin əsas məqsədi rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığının vəziyyətinin araşdırılması, bu zaman görülməsi zəruri olan işlərin müzakirəsidir.

Növbəti müşavirələr paytaxtın Yasamal, Nizami və Xəzər rayonlarında keçirilib. Müşavirələrdə qeyd edilib ki, rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahlar, kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərləri qarlı günlərdə üzərlərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsi üçün hazır olmalıdırlar. Hər bir quruma qarın təmizlənməsi üçün lazımi qədər alət, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatı yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilib. Rayondakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı, idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Həmçinin rayonlardakı idarə, təşkilat və özəl qurumlara, bələdiyyələrə, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinə özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə çağırış edilib.

"Azərbaycan"

Bəzi yerlərdə yağış yağacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi, lakin bəzi yerlərdə yağış yağacağı gözlənilir. Güclü qərb, şimal-qərb küləyi gündüz mülayim cənub-qərb küləyi ilə əvəz olunacaq.



Havanın temperaturu gecə 10-15°, gündüz 16-20° isti olacaq. Atmosfer təzyiqi 752 millimetr civə sütunundan 761 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 50-60 faiz təşkil edəcək.

Azərbaycanın əksər rayonlarında havanın əsasən yağmursuz keçəcəyi, lakin gecə və səhər bəzi dağlıq, dağətəyi rayonlarda arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 5-10°, gündüz 17-21° isti, dağlarda gecə 0-5°, gündüz 13-18° isti olacaq.

ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi Baş Prokurorluğun idarə prokuroru Ruslan Babazadəyə anası

XACAY XANIMIN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İstefada olan polkovnik-leytenant, Əməkdar müəllim Bayram Heydər oğlu Məmmədov "525-ci qəzet"in baş redaktoru Rəşad Məcidə anası

YAVƏR XANIMIN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR

Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3292
Sifariş 1518

Qiyməti 60 qəpik